# İLLİK HESABAT - 2012

www.redcrescent.az



Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb bacıları I Dünya müharibəsindən sonra

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək.

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| HUMANİZM NAMİNƏ FƏALİYYƏTİMİZ DAVAMLIDIR | 3 |
| FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ | 6 |
| SAĞLAMLIQ VƏ QAYĞI | 11 |
| İNFORMASİYA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR | 19 |
| TƏŞKİLATİ İNKİŞAF | 25 |
| GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR | 28 |
| GƏNCLƏR KOMİTƏSİ | 34 |
| SİLAHLARA QARŞI MÜBARİZƏ | 37 |
| FANDREYZİNQ VƏ GƏLİR GƏTİRMƏ | 41 |
| YERLİ BÖLMƏLƏRİN İNKİŞAFI | 45 |
| HUMANİTAR YARDIM | 48 |
| MİQRASİYA | 52 |
| AXTARIŞ XİDMƏTİ | 55 |
| MALİYYƏ | 58 |

# HUMANİZM NAMİNƏ FƏALİYYƏTİMİZ DAVAMLIDIR



Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər zaman ehtiyacı olan insanlara humanitar yardım, təmənnasız sosial-tibbi xidmətlər göstərmiş, müxtəlif fəlakətdən zərərçəkmişlərə lazımi dəstək vermişdir. Özünün fəaliyyət dairəsini daha da genişləndirərək, Cəmiyyətimiz daha da təkmilləşərək Beynəlxalq Hərəkatın inkişafına öz töhvəsini vermişdir. Müasir dövrümüzdə Cəmiyyətimizin daha da inkişaf etməsinə əsas səbəb dövlət başçısının müvafiq fərman və sərəncamları olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyev hər zaman Cəmiyyətimizə qayğı ilə yanaşmışdır. "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qəbul edilmiş Qanun, "Qızıl Aypara Günü"nün təsis olunması, Nazirlər Kabinetinin müvafiq sərəncamları buna bariz nümunədir.

Hər il olduğu kimi 2012-ci ildə də Cəmiyyətin fəaliyyət istiqaməti çoxsahəli olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada müxtəlif humanitar yönümlü layihələri uğurla həyata keçirmişdir. Bu layihələrin həyata keçirilməsində müvafiq hökumət strukturları lazımi dəstək vermişdir. Belə qarşılıqlı əməkdaşlıq sayəsində fəaliyyətimizdə nəzərə çarpan irəliləyişlərə nail olunmuşdur. Fəaliyyətimizdə xüsusilə, sosial sahəyə önəm verilmiş və bu istiqamətdə həyata keçirilən layihələr əhalinin sağlamlığı naminə maarifləndirmə işlərinin gücləndirilməsinə yönəldirilmişdir. Gənclərin və könüllülərin həyata keçirilən layihələrə cəlb edilməsi isitiqamətində kifayət qədər işlər görülmüşdür. Xüsusilə, qan donorluğu, ilk yardım və fəlakətlər zamanı zərərçəkmiş insanlara zəruri yardımların edilməsində könüllülərimiz yaxından iştirak etmişlər. Təşkilati sahədə əsas istiqamətlərdən biri yerli bölmələrin inkişafı, üzvlərin sayının artırılması və yerli icmaların formalaşdırılması hər zaman gündəlik fəaliyyətimizdə duran ön məsələlərdən olub. Bu sahədə də müəyyən nailiyyətlərimiz vardır. Bu il üzvlərimizin sayı artırılaraq 300 minə, könüllülərimizin

sayı isə 19 minə çatmışdır və bu artım davam etməkdədir.

Son zamanlar Azərbaycanda baş vermiş təbii fəlakətlərdən zərər çəkmiş insanlara yardımların edilməsində Azərbaycan Qızıl Aypara Cəmiyyəti bütün potensialından tam istifadə etmişdir. Bu il Azərbaycanın şimal bölgəsində, xüsusilə Zaqatala, Qax rayonlarında zəlzələ baş vermiş və bir çox fərdi evə ziyan dəymişdir. Respublika rəhbərliyinin müvafiq göstərişi ilə bütün əlaqədar təşkilatlar, xüsusilə, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi bu ərazilərdə öz imkanlarını tam səfərbər edərək kifayət qədər böyük işlər görmüşdür. Tez bir zamanda zəlzələ nəticəsində dağılmış və qəza vəziyyətinə düşmüş evlərin əvəzinə yeni evlər inşa edilərək zərər çəkmiş insanlara verilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də özünün yerli bölmələrinin vasitəsi ilə zərər çəkmiş insanlara operativ surətdə lazımi yardımlar göstərmişdir. Bu işlər Fövqəladə Hallar Nazirliyinin koordinasiyası ilə həyata keçirilmişdir. Belə hallarda fəaliyyət göstərmək üçün Fövqəladə Hallar Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında Anlaşma Memorandumu mövcuddur.

Bir çox layihə var ki, Cəmiyyətimiz belə layihələrin zəruriliyini nəzərə alaraq davamlılığını təmin etmişdir. “Təhlükəsiz Oyun Meydançası”, “İlk yardım”, “Vərəmli xəstələrin müalicəsinə nəzarət”, “İcmada sağlamlıq” və s. layihələr bu sıradandır.

Gəlirgətirmə sahəsinin inkişafı üçün lazımi addımlar atılmışdır. Strategiyamıza uyğun olaraq bu sahə əsas prioritetlərimizdəndir. İanələrdən toplanmış vəsait ahıl kimsəsiz xroniki xəstələrə müvafiq yardımların edilməsinə yönəldilmişdir.

Maliyyə dəstəyi məsələsi Milli Cəmiyyət üçün çox önəmlidir. Əlbəttə, bu sahədə bizim həm uğurlarımız, həm də çətinliklərimiz mövcuddur. Belə ki, AzQAC ianə və üzvlük haqqları hesabına zəruri humanitar proqramların həyata keçirilməsinə nail olur. 2011-2015-ci illəri əhatə edən yeni strategiyamızın da əsas istiqamətlərindən biri məhz budur. Düşünürəm ki, buna nail olmaq üçün insanlar arasında lazımi maarifləndirmə işləri aparılmalıdır. Hər bir vətəndaş ianə etdiyi vəsaitin təyinatı üzrə yönəldilməsi barədə məlumat əldə edə bilər. Bizim fəaliyyətimiz şəffafdır.

Sonda, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nəcib və xeyirxah missiyasının həyata keçirilməsinə dəstək verən hər bir şəxsə, o cümlədən, hökumət və qeyri-hökumət strukturlarına, beynəlxalq təşkilatlara, könüllülərə öz təşəkkürümü bildirirəm.

**Dr. Novruz Aslanov**
**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı**



# FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

**Məqsəd:**

2011-2015-ci illər üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Strateji Planına uyğun olaraq, insan həyatını xilas etmək naminə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər etməklə, fəlakət və böhranlara daha hazırlıqlı olmaq və bununla da fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olmaqdır.

**Fəaliyyətlər:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi 2012-ci ildə də müxtəlif fəlakətdən (zəlzələ, yanğın, sel, daşqın və s.) zərər çəkən insanlara humanitar və psixoloji yardımları göstərməkdə davam etmişdir.

Mayın 7-də Zaqatala rayonunda 12 ballıq Rixter cədvəli üzrə 7 bal gücündə, mayın 18-də isə 7.5 bal gücündə zəlzələ baş vermişdir. Zəlzələ nəticəsində rayonda bir çox şəxsi və inzibati binaya zərər dəymişdir. Baş vermiş hadisədən dərhal sonra mayın 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Novruz Aslanov Milli Cəmiyyətin həmin regionda fəaliyyət göstərən bölmə sədrlərinin, AzQAC-nin Baş Qərargahının Fövqəladə Hallara Hazırlıq və Cavabvermə heyətinin, həmçinin, Zaqatala rayonundan seçilmiş Milli Məclisin deputatı Hikmət Atayevin iştirakı ilə Zaqatalada fövqəladə vəziyyətin qiymətləndirilməsinə dair zonal müşavirə keçirmişdir.

AzQAC və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) arasında 11 noyabr 2006-cı il tarixində imzalanmış memoranduma əsasən, öz mandat və missiyası çərçivəsində Milli Cəmiyyətin prezidentinin sərəncamı ilə fövqəladə hallar üzrə işçi heyəti və könüllüləri zəlzələ zonasında olmuş, Cəmiyyətin imkanları daxilində zərərçəkmiş 400 nəfərdən ibarət olan 100 ailəyə ilkin humanitar yardım edilmişdir.

Həmin zonada zəlzələnin 2-ci dəfə təkrar olunmasını nəzərə alaraq, hadisə yerində işçi heyətin və könüllülərin iştirakı ilə "Ehtiyacların Qiymətləndirilməsi" və yardıma daha çox ehtiyacı olanlara humanitar yardım göstərilməsi haqda Milli Cəmiyyətin prezidentinin əlavə sərəncamı olmuşdur.

Sərəncama əsasən, Katibliyin FHHC şöbəsi tərəfindən rayon bolmələrinin əməkdaşları təlimatlandırılmış və buna əsasən yerli bölmələr yerlərdə vəziyyəti qiymətləndirmə işlərini apararaq, təbii fəlakətdən ən çox zərər çəkmiş 3473 nəfərdən ibarət 700 ailənin siyahısını tərtib etmiş, dağılmış evlərin sayını müəyyən etmiş və sair məlumatlar dəqiqləşdirərək Baş Qərargaha təlimata uyğun olaraq, təcili məlumat verilmişdir. Qiymətləndirmənin nəticələrinə əsaslanaraq, Cəmiyyət zərərçəkənlərə humanitar yardım etmək üçün Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının "DREF" (fövqəladə hallara cavabvermə fondu) fonduna müraciət etmiş və 700 ailəlik yardım üçün vəsait alınmışdır. 2012-ci ilin iyul ayı ərzində cəmiyyətin işçi heyəti və könüllüləri Zaqatala rayonunda 5 (beş) (Çobankol, Qımır, Bazar, Zəyəm və Gözbarax) kəndi əhatə edərək, 2356 nəfərdən ibarət 450 ailəyə, Qax rayonunda da 5 (beş) (Güllük, Zərnə, Ləkit, Ləkit Kötüklü və Qum) kəndi əhatə edərək 1117 nəfərdən ibarət 250 ailəyə ərzaq və qeyri-

ərzaq malları ilə humanitar yardım göstərmişdir. Humanitar yardımın paylanışı üç mərhələdən ibarət olmaqla iyul ayı ərzində keçirilmişdir. Edilən humanitar yardım insanlar tərəfindən böyük minnətdarlıqla qəbul edilmişdir.

Qeyd edək ki, AzQAC-nin adı çəkilən bölgələrdə apardığı yardım əməliyyatı son illərin ən böyük miqyaslı tədbiri olmuşdur.

Bundan əlavə, Şəki şəhərində M.Ə. Rəsulzadə küçəsi, 108 saylı ünvanda 45 nəfərdən ibarət 8 ailənin yaşadığı yataqxana binasında yanğın baş vermişdir. Yanğın zamanı sakinlərin bütün əmlakları tamamilə yararsız hala düşmüşdür. Noyabr ayının 29-da Şəki şəhərində zərərçəkmiş 8 ailəyə humanitar yardım göstərilmişdir. Bunlar, adyal, rezin çəkmə, səyyar qaz plitəsi, mətbəxt dəsti, yataq dəsti, əriştəkəsən, palaz, döşək və yataq kisəsindən ibarətdir.

Göstərilənlərdən əlavə, cari ildə İsmayıllı rayonunda yanğın və digər fəlakətlərdən ziyan çəkmiş 39 nəfərdən ibarət 7 ailəyə, respublikanın digər rayonlarında (Saatlı, Göygöl, Masallı, Neftçala, Qobustan) və Sumqayıt şəhərində, ümumilikdə 51 nəfərdən ibarət 9 ailəyə humanitar yardımlar göstərilmişdir.

**Təchizat üzrə:**

Yanvar – Dekabr aylarında Zaqatala, Saatlı, Göy-Göl, Masallı, İsmayıllı, Şəki, Neftçala rayonlarında və Sumqayıt şəhərində zərərçəkmiş sakinlərə yardım məqsədilə 24 cüt rezin çəkmə, 454 əd. dəsmal, 120 mətbəx dəsti, 120 əd. səyyar qaz plitəsi, 6 əd. kanistr, 286 əd. adyal, 253 yataq dəsti, 193 əd. döşək, 409 gigiyenik dəst, 25 əd. palaz, 48 əd. yataq kisəsi, 118 əd. əriştəkəsən və 5 əd. çadır paylanılmışdır.

Zaqatala və Qax rayonlarında zərər çəkmiş sakinlərə yardım göstərmək məqsədilə 1365 əd. rezin çəkmə, 3473 əd. dəsmal, 700 mətbəx dəsti, 700 əd. səyyar qaz plitəsi, 1400 əd. kanistr, 3473 əd. adyal, 3473 yataq dəsti, 3473 əd. döşək, 700 gigiyenik dəst və 700 əd. ərzaq bağlaması alınmışdır.

Qarşılıqlı əməkdaşlıq üzrə:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə söbəsi müxtəlif fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsilə yanaşı, həm də tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsədilə müxtəlif tədbirlərdə, seminarlarda və treyninqlərdə fəal iştirak etmişdir.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi fevral ayının 28-də Bakı Slavyan Universitetinin bazasında "Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında ictimaiyyətin rolu" mövzusunda elmi-praktik konfrans keçirmişdir. Konfransda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları, İcraçı katibin müavini Elşən Səlimzadə, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə, Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova da çox fəal iştirak etmişlər. İcraçı Katibin müavini Elşən Səlimzadə konfransda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fövqəladə hallara hazırlıq və cavabvermə, qan donorluğu, ilk yardım, humanitar dəyərlərin yayımı barəsində geniş məruzə ilə çıxış etmişdir.

Aprelin 4-də Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzi, Sumqayıt Dövlət Universitetində "Həyat fəaliyyətinin təhlükəsizliyinin konseptual əsasları. Fövqəladə hallarda əhalinin hazırlığı və həyat təminatı" mövzusunda nəzəri-praktiki seminar təşkil etmişdir. Seminarda İcraçı Katibin müavini Elşən Səlimzadə ətraflı çıxış etmişdir. Həmçinin, seminarda AzQAC-nin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə və AzQAC-

nin Sumqayıt ŞB-nin sədri Mətanət Məhərrəmova da iştirak etmişlər.

İyunun 18-19-da Türkiyənin Ankara şəhərində, Türkiyə Qızıl Ay Cəmiyyəti tərəfindən "Fövqəladə hallar zamanı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin rolunun yenidən baxılması" mövzusunda konsultativ görüş keçirilmişdir. Tədbirdə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə Azərbaycan Qızıl Aypara Cəmiyyətini təmsil etmişdir. Görüşdə Cəmiyyətlər arasında qarşılıqlı işgüzar əməkdaşlıq və gələcək işlərin planlaşdırılması müzakirə olunmuşdur.

"Oxfam" təşkilatının Azərbaycan Nümayəndəliyi və UNICEF, Fövqəladə Hallar Nazirliyi və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, iyunun 22-də Bakı "Dalğa Plaza"-da "Fəlakət Riskinin Azaldılması" proqramının birgə təqdimatı keçirilmişdir. Proqramın məqsədi yerli icmaların, təşkilat və müəssisələrin fövqəladə hallara qarşı mövcud zəifliyini aradan qaldırmaq və fövqəladə hallara vaxtında, səmərəli cavab vermək üçün onların hazırlıqlarını artırmaq olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti "Oxfam" təşkilatının tərəfdaşı qismində həmin görüşdə iştirak etmişdir.

"Oxfam" təşkilatının daha bir tədbiri oktyabr ayının 12-də "Caspian Business Center"da keçirilmişdir. Tədbirin mövzusu "Qadınlar və Qızlar: Gücümüzün Görünməyən Üzü" idi. Tədbir "Beynəlxalq Fəlakət Riskinin Azaldılması Günü"nə həsr edilmişdir. Həmin tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibinin müavini Elşən Səlimzadə, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə, Saqlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova da iştirak etmişdir. Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova tədbirdə geniş çıxışla qadınların bu günku problemlərindən və onların cəmiyyətindəki rolundan danışmışdır.

2011-ci ilin iyun ayından başlayaraq Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası vasitəsilə "AzQAC-nin potensialının gücləndirilməsi məqsədilə yerlərdə icmaların yaradılması" adlı layihəni cari ildə də uğurla davam etdirmişdir. Bu layihə ilə bağlı AzQAC-nin FHHC şöbəsi 2012-ci ilin yanvar – iyun aylarında Gəncə və Zaqatala rayonlarında treyninqlər keçirmiş və



bununla da adı çəkilən bölgələrdə olan icmalar tez bir zamanda baş verən fəlakətə qarşı çevik cavabvermə qabiliyyətinə yiyələnmişlər. Bundan başqa, aprel ayında yerli bölmələr və icmaların iştiraki ilə İsmayıllı rayonunda AzQAC-nin FHHC şöbəsi rayon ərazisində ağacəkmə kampaniyasını keçirmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyi arasında imzalanmış müqaviləyə əsasən, noyabr ayında "Fövqəladə Vəziyyət və Ehtiyacların Qiymətləndirilməsi" mövzusunda Lənkəran və Mingəçevir RM-də iki treyninq keçirilmişdir.

Dekabr ayında "Təhlükəsiz və dayanıqlı (möhkəm) icmaların qurulmasına" dair Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Avstriya Qızıl Xaçı arasında üç il müddətinə "Qrant müqaviləsi" bağlanılmışdır. Bu müqavilədə, tərəflər bərabər partnyorluq şəraitində əməkdaşlıq etməyə və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri və Nizamnaməsi əsasında hərəkət etməyə razılıq əldə edilmişdir. "Təhlükəsiz və dayanıqlı (möhkəm) icmaların qurulmasına" layihəsinin məqsədi, hədəfə alınmış kənd və şəhər yerlərində icmaların təbii və insan əli ilə yaradılan fəlakətlərə qarşı dayanıqlığın (davam gətirməsi) artırılması və icmaların möhkəmliyinin gücləndirilməsidir.

**Nailiyyətlər:**

Müxtəlif fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:

Cari ildə AzQAC tərəfindən müxtəlif fəlakətlərdən zərər çəkmiş 535 nəfərdən ibarət, ümumilikdə, 124 ailəyə 27,125.54 manat məbləğində humanitar yardım göstərilmişdir.

Cari ilin may ayında Zaqatala və Qax rayonlarında baş vermiş zəlzələ ilə əlaqədar Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının "Fövqəladə Hallara Cavabvermə Fondu (DREF)" tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına daha 3473 nəfərdən ibarət 700 ailəyə 213,738.20 manat məbləğində humanitar yardım göstərilmişdir.

**Problemlər:**

- Hələ də xarici donorlardan asılılıq;
- Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;
- Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli planın olmaması;
- Nəqliyyat vasitəsinin olmaması.
- Telekommunikasiya üzrə mütəxəssisin olmaması;

| № | Regional Mərkəz | Ailə sayı | Neçə nəfər (fərd sayı) | Məbləğ |
|---|---|---|---|---|
| 1 | Bakı Mərkəzi Anbar | 123 | 528 | 26,775.54 |
| 2 | Bakı Mərkəzi Anbar | 700 | 3473 | 213,738.20 |
| 3 | Qobustan RB | 1 | 7 | 350.00 |
| 4 | Cəmi | 824 | 4008 | 240,863.74 |


ƏZÍZ DONOR!
Xeyìrxah addımına
görə Sənə mìnnətdarıq!

# SAĞLAMLIQ VƏ QAYĞI

**Məqsəd:**

Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların təhlükəsiz həyat sürməsi naminə biliklərini artırmaq

**Fəaliyyətlər:**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri tərəfindən irəli sürülən "Təhlükəsiz, Sağlam Həyat Tərzi" Konsepsiyası, Cəmiyyətin bəşəriyyətin inkişafına verdiyi daha bir töhfəsidir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İctimai Səhiyyəyə, xüsusən Sağlam Həyat Tərzinə dair ölkələrə (Azərbaycan daxil olmaqla) verdiyi tövsiyələrdə göstərilir ki, bütün bunlar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin icmaya əsaslanan sağlamlıq sahəsində aparan fəaliyyətlərin əsasını təşkil edir.

Cari ildə İctimai Səhiyyəyə aid olan Sağlam Həyat Tərzinin təbliğinə önəm verərək, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Regional Mərkəzlər və yerli bölmələr vasitəsilə Azərbaycanın şəhər və rayonlarında geniş səhiyyə maarifi işini təşkil etmişdir. Buraya ictimaiyyətin səhiyyə sahəsində maariflənməsində ÜST tərəfindən təsis edilən sağlamlıqla bağlı günlərin qeyd edilməsi də daxildir. Azərbaycanda icmaya əsaslanan sağlamlıq sahəsində aparılan fəaliyyətlərdə yardımçı rol oynayan və ölkədə sağlamlıq sahəsində fəaliyyət göstərən dövlət və qeyri hökumət təşkilatlarla əməkdaşlıq edərək, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ictimaiyyətin Vərəm, AİDS, Yaşlanma, psixi sağlamlıq və s. kimi mövzulara diqqəti cəlb edib, təbliğat yönümlü tədbirlərin təşkilində və kampaniyalarda fəal iştirak etmişdir. Belə ki, cari ildə 7 Aprel Ümumdünya Sağlamlıq Günü "Yaşlanma və sağlamlıq: Sağlam olmaq ömrü uzadır" şüarı ilə sağlam yaşlanma məsələlərinə ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə AzQAC-n Sabunçu rayon bölməsinin əməkdaşları və könüllüləri, Binəqədi və Nəsimi rayon bölmələrinin tibb bacıları və könüllüləri ilə yanaşı "Qadın və İnkişaf Resurs Mərkəzi"-n və digər təşkilatların 30 nəfər nümayəndələrinin iştirakı ilə dəyirmi masa təşkil olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hazırlanan "Yaşlanma və sağlamlıq" mövzusuna aid məlumatlar Cəmiyyətin Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova tərəfindən iştirakçılara geniş şəkildə təqdim olunmuşdur. Yaşlıların sağlamlığına təsir edən amillər, cəmiyyətdə mövcud olan stereotiplər haqqında verilən məlumatlar iştirakçılarda maraq oyatmışdır və geniş müzakirələrə səbəb olmuşdur. Tədbirdə iştirak edən orta və yaşlı qadınların hər biri yaşlı insanların fəal olmağını, ictimai fəaliyyətlərə qoşulmaları üçün onlara lazımi şəraitin yaradılmasına dair tövsiyələrlə çıxış etmişlər. Sonda ÜST-nın hazırladığı "Yaşlanma və sağlamlıq" mövzusuna aid plakat və video çarx nümayiş etdirilmişdir.

Ötən ildə Vərəmlə mübarizə sahəsində bəzi fəaliyyətlər həyata keçirilmişdir. Belə ki, Cəmiyyətin Sağlamlıq və qayğı şöbəsi 24 Mart "Ümumdünya Vərəmlə Mübarizə Günü"nə həsr edilən silsilə tədbirləri təşkil etmişdir.

Vərəmin uşaqlar arasında yayılmasını nəzərə alaraq, Sumqayıt şəhərində yerləşən qaçqın və məcburi köçkünlərin "Kimyaçılar icması"nda uşaqlar üçün QAC Sumqayıt

şəhər bölməsinin fəal könüllüləri və icma rəhbərinin təşkilatçılığı ilə vərəm haqqında AzQAC-nin könüllüləri tərəfindən yazılan "Sağlamlıq ölkəsinin əhvalatı" adlı nağıl səhnələşdirilmişdir. Həmin səhnəcikdə iştirak etmək üçün icmanın fəal məktəbli və kiçik yaşlı uşaqlar cəlb olunmuşdur. Səhnəciyin nümayişinə digər qaçqın məktəbli uşaqlar da dəvət olunmuşdu. Böyük həvəslə və məharətlə səhnəcikdə rol oynayan uşaqlar vərəmə aid olan məsələlər: vərəmin törədicisi, yoluxma yolları, xəstəliyin müalicəsi kimi məlumatları tədbir iştirakçılarına çatdırmışlar. Səhnəcik bitdikdən sonra vərəm xəstəliyinə yoluxmamaq üçün gigiyenik qaydalara riayət etmələri tövsiyə olunmuşdur. İcma rəhbərinə və uşaqlara onların fəallığına görə Təşəkkürnamələr və kiçik hədiyyələr təqdim olunmuşdur. Ümumilikdə tədbirdə 50 nəfər iştirak etmişdir. Vərəmlə mübarizə gününə həsr edilən digər tədbir AzQAC Sabunçu rayon bölməsinin təşəbbüsü ilə həmin rayonda yerləşən qacqın və məcburi köçkünlərin məskunlaşdığı yataqxanada təşkil olunmuşdu. Cəmiyyətin Sağlamlıq və qayğı şöbəsinin müdiri M.Qaraxanova burada yaşayan sakinlərə vərəm haqqında geniş məlumatlar çatdırmış, xəstəliklə bağlı onları narahat edən sualları müzakirə edərək, cavablandırmışdır. 20 iştirakçı arasında vərəmə aid kitabçalar və vərəqələr paylanılmışdır.

İl ərzində AzQAC Ölkədə Vərəm üzrə İşçi Qrupun üzvü olduğundan Milli Vərəm Proqramı, "Həyat"- Beynəlxalq Humanitar Təşkilatı, BMT-nin Qaçqın və Məcburi Köçkünlər üzrə Ali Komissarlığı ilə birgə keçirilən tədbirlərdə də iştirak etmişdir. Belə ki, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən Azərbaycanda İlkin Səhiyyənin Gücləndirilməsi Layihəsi "Vərəmlə bağlı stiqmaya qarşı mübarizə" mövzusunda jurnalist yazıları müsabiqəsində 1-ci yeri "Mən Vərəmə necə qalib gəldim" yazısına görə AzQAC-in "Yeni Təfəkkür" qəzetinin baş redaktoru, əməkdar jurnalist Şəmsiyyə Kərimova tutmuşdur.

Beləliklə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində ölkənin şəhər və rayonlarında əhalinin sağlamlıqla bağlı maariflənməsində istifadə etmək məqsədilə İçtimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən hazırlanaraq çap edilən 4000- dən artıq vərəm, HİV/AİDS, ətraf mühitin qorunması, qan donorluğu, tütünlə mübarizə və s. kimi əyani vəsait (plakat, vərəqələr, kitabçalar) Azərbaycan Qızıl Aypara Cəmiyyətinə təqdim edilmişdir. İl



ərzində Bakı Slavyan və Dövlət Universitetlərinin 100 tələbəsi AzQAC-də təcrübə proqramına qatılmış Yayım və Beynəlxalq əlaqələr, Tibbi-sosial, Axtarış, Gənclər və könüllülərə aid proqramlar üzrə kurslar keçmişlər.

### İlk Yardım

Cari ildə Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti sərhədyanı rayonlarda yerli bömələrin (Gəncə, Şəmkir, Qazax, Tərtər, Goranboy, Bərdə, Tovuz, Ağdam, Ağstafa, Füzuli, Ağcabədi, Daşkəsən, Göygöl) ilk yardım potensialını gücləndirmək məqsədilə gənclərlə iş üzrə təlimatçılarına altı günlük təlim keçirilmişdir. Hesabat dövründə Bakı, Mingəçevir, Ağdam, Füzuli və s. şəhər və

rayon bölmələrinin 15 nəfər ilk yardım təlimatçısı tərəfindən 1044 nəfər ilk yardım vərdışlərinə yiyələnərək, maariflən-dirilmişdir. Bu fəaliyyətlər çərçivəsində İlk Yardıma aid 2100 ədəd vəsait və 100 ədəd təlim modulu hazırlanmış və çap edilmişdir.

Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyası bu ilin sentyabr ayının ikinci şənbə gününü- 8 sentyabr tarixini "Zavallı insalara İlk Yardım" mövzusu günü elan etmişdir. Ümumdünya İlk Yardım günü sentyabr ayının 10-da Abşeron rayon bölməsinin təşkilatçılığı ilə, Azərbaycan Uşaq və Gənclər Sülh Şəbəkəsinin 10 nəfər gənci və yeniyetməsi, Laçın rayonu Çıraqlı kəndi və 126 saylı Kəlbəcər tam orta məkbtəblərin 60 dan çox şagirdi ilə birgə İlk Yardım



vərdişlərinin yiyələnməsinə dair tədbir Xırdalan şəhəri Təhsil şöbəsində baş tutmuşdur. Tədbirdə AzQAC Sumqayıt Şəhər Bölməsinin sədri Mətanət Məhərrəmova, fəal könüllü Sona Hacıyeva və digər nümayən-dələr iştirak etmişlər. AzQAC İlk Yardım sek-torunun rəhbəri Şahin Biləndərli tərəfindən əvvəlcədən təlimatlandırılmış Azərbaycan Uşaq və Gənclər Sülh Şəbəkəsindən olan yeniyetmələr İlk Yardıma aid mövzuları (qanaxmalar, sınıqlar, və digər təhlükəli vəziyyətlər) səhnələşdirib, tədbir iştirakçıları-na tez-tez rast gəlinən təhlükəli hallar zamanı İlk Yardıma aid məlumatları təqdim etmişlər. Hər çıxışdan sonra iştirakçılara İlk yardım vərdişləri koordinator tərəfindən təhlil olunub, açıqlanırdı. Tədbirin sonunda AzQAC tərəfindən fəal şagirdlərə tərifnamələr və 2 icmaya ilk yardım göstərmək məqsədilə dərman və tibbi ləvazimatlarldan ibarət 2 ədəd İlk Yardım qutusu təqdim olunmuşdur.

2012-ci ildə "İcmaya əsaslanan sağlamlıq" proqramı çərçivəsində 10 Oktyabr "Ümumdünya Psixi Sağlamlıq Günü" "Depressiya və qlobal krizis" mövzusu ilə bir sıra təşkilatla birgə maarifləndirici tədbirlər həyata keçirilmişdir. Belə ki, AzQAC Sağlamlıq və qayğı şöbəsi, ÜST-ın Azərbaycan ofisi, "Həyat" Beynəlxalq Humanitar təşkilatı, Azərbaycan Praktiki psixoloqlar Assosiasi-yası, Azərbaycan Psixiatrlar Assosiasiyası və s. kimi ölkədə bu sahədə fəaliyyət göstərən təşkilatlar əməkdaşlıq edərək bu günün qeyd olunmasına qatılmışlar. "Həyat" Beynəlxalq Humanitar təşkilatının Qadın və Gənclər Mərkəzinin ofisində təşkil olunan tədbirə, miqrant qadınlar arasında psixi sağlamlıqla bağlı problemləri müzakirə etmək üçün Psixoloji Məsləhət Mərkəzinin psixoloqu dəvət olunmuşdur. Görüşdə iştirak edən Azərbaycana köçən 28 nəfər qadınla psixoloq və mütəxəssislər tərəfindən prezentasiya edilib, depressiyaya aid geniş məlumatlar verilmişdir. "Ümumdünya Psixi Sağlamlıq Günü"nə həsr edilən digər tədbir oktyabr ayının 10-da 1 saylı Ruhi Xəstəxanada AzQAC Sabunçu və Nəsimi rayon bölmələri tərəfindən təşkil olunmuşdur. Burada müalicə alan 35 ruhi xəstə uşağa sovqatlar verilmiş, "Aypara" instrumental ansamblının çıxışı təşkil edilmişdir .

## HİV/AİDS

Hər il olduğu kimi AzQAC bu ildə də 1 Dekabr "Ümumdünya AİDS-lə Mübarizə Günü"nü Rəşid Behbudov adına mahnı teatrında qeyd etmişdir. Tədbirdə Azərbaycan

Qızıl Aypara Cəmiyyətinin ali rəhbərliyindən tutmuş sıravi işçisinə, adi könüllülərlə bərabər, Beynəlxalq Qızıl Xaç Komitəsinin və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri, dövlət qurumlarından olan nümayəndələr–xüsusilə də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin QİÇS-lə Mübarizə Mərkəzinin rəsmiləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, KİV-nin nümayəndələri iştirak etmişlər. AİDS xəstəliyindən əziyyət çəkənlərə beynəlxalq səviyyədə həmrəylik emblemi kimi qəbul olunmuş qırmızı lent və mövzuya aid bukletlər 300 nəfər iştirakçıya paylanılmışdır. Tədbir ilk olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti, Dr. Qafar Əsgərzadənin giriş nitqi və tədbirin mahiyyətinin izahı ilə start götürmüşdür. O, mərasim iştirakçılarını Azərbaycan Qızıl Aypara Cəmiyyəti adından salamlayaraq hamını bir daha bu qeyd olunan günlərin önəmindən danışmışdır. Natiq vurğulamışdır ki, Beynəlxalq AİDS-lə mübarizə günü əslində il ərzində 1 dəfə deyil hər gün, hər bir vətəndaşın mübarizəyə qoşulması ilə səciyyələnməlidir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti olaraq bu xəstəliyin aradan qaldırılmasına töhvə verən humanitar



fəaliyyətlərimiz səngimir və bu fəaliyyətlərin sonu olaraq hər il dekabr ayında ictimaiyyətə geniş şəkildə təqdim olunan bu qəbil tədbirlər tərəfimizdən təşkil olunur. Rəsmi hissədən sonra tədbir bədii musiqili proqramla davam etdirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəal könüllüləri sayılan, daim Milli Cəmiyyətin müxtəlif tədbirlərində səhnələrdə yer alan Azərbaycan estradsının ən tanınmış nümayəndələri, populyar müğənnilər bir-birinin ardınca səhnəyə çıxmışlar. Səhnədə yer alan bütün sənət adamları ifalarında bütün tədbir iştirakçılarını daim AİDS-lə mübarizədə fəal olmağa səsləmişlər.

Ölkənin müxtəlif rayon və şəhərlərində Səhiyyə Nazirliyi AİDS-lə Mübarizə Mərkəzi, UNAİDS, UNODC, AİDS, Vərəm və Malyariya üzrə Qlobal Fond, digər yerli və Beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən 1 Dekabr "Ümumdünya AİDS-lə mübarizə Günü"nə həsr edilən tədbirlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Sağlamlıq və qayğı şöbəsinin işçi və könüllüləri də iştirak etmişdir.

Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyası HİV/AİDS, Vərəmlə mübarizə Avropa Şəbəkəsinin (ERNA-European Network AIDS) 16-cı konfransı 2012-ci ilin sentyabr ayının 15-dən 18-dək Gürcüstanın Tiflis şəhərində « Könüllülük: HİV və Vərəm» şüarı ilə keçirilmişdir. Hər il ERNA üzvləri olan Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətlərinin nümayəndələri bir araya toplaşıb, dünyada adı çəkilən xəstəliklərə qarşı mübarizə yollarını müzakirə edib, aparılan fəaliyyətlərdə gənclər və könüllülərin rolu haqqında fikir və rəylərini vurğulamışdırlar. Adı çəkilən konfransda AzQAC İcraçı katibinin müavini Şaban Şayev iştirak etmişdir.

**Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına dəstək.**

**Club 25**

Hesabat ilində Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Federasiyasının Qan Donorluğu proqramı çərçivəsində "Club 25"adlı layihəsi həyata keçirilmişdir. Gəncləri qan donorluğu sahəsində mariflәndirmək, qan vasitəsilə

əmələ gələn HİV/AİDS, B, C, D Hepatitləri, və s, kimi xəstəliklər haqqında məlumatlandırmaq və bununla da, ölkədə qan donorluğu sahəsini inkişaf etdirmək, qan ehtiyatlarını genişləndirmək Club 25-in əsas fəaliyyət istiqamətlərindəndir. AzQAC-ın Sağlamlıq və qayğı şöbəsinin 4 ay müddətli layihəsi davam etdirilərək, tək Bakıda deyil (Bakıda "Club-25" 2007 ildə yaradılmışdır), Azərbaycanın digər şəhər və rayonlarında bu klubun şəbəkəsinin yaradılmasına yönəldilən fəaliyyətləri nəzərdə tutur. Bu proqram gənclər üçün nəzərdə tutulduğundan, gənclər arasında sağlam və təhlükəsiz həyat tərzinin təbliği, təşviqatı və gənclərdən ibarət daimi, təhlükəsiz, könüllü və təmənnasız qan donorlar şəbəkəsinin yaradılması proqramının məqsədləri sırasına daxildir. Bu



proqram, qan donorlarının məcburi yığılması deyil, onların könüllü olaraq donorluq şəbəkəsinə dəvət olunması proqramıdır.

Məhz bu səbəbdən, orta məktəb şagirdlərindən başlayaraq, bütün gənclərdə ömürlük "təhlükəsiz və sağlam qan donorluğu" anlayışının yaradılması, onlarda sağlamlıq haqqında biliklərin möhkəmləndirilməsi və gələcəkdə təhlükəsiz sağlam həyat tərzi sürməyə yönəldilməsi ilə Club 25 öz məqsədlərini həyata keçirir.

Hesabat ilində aparılan layihə çərçivəsində Gənclərə qan donorluğu və Sağlamlıq haqqında 4 təlim təşkil olunmuşdur. AzQAC-nin nəzdində Sumqayıt Şəhər və Sabirabad rayon bölmələrinin 6 nəfər könüllü üzvlərdən ibarət Club 25 yaradılmışdır. Bu bölgələrdə layihə çərçivəsində eyni zamanda qan donorluğunun inkişafına dəstək olmaq məqsədilə, AzQAC Club 25 üzvləri müxtəlif təşkilatlar və təhsil ocaqlarında qan donorluğuna aid seminar və görüşlər keçirilir, qan xəstəliklərdən əziyyət çəkən uşaq və böyüklərə sosial yönümlü tədbirlərin, qan vermə aksiyalarının təşkil edilməsində yaxından iştirak edirlər. Club 25 layihəsi çərçivəsində şəbəkə üzvlərin görüşləri, dəyirmi masaları təşkil etməklə davam ediləcək.

İl ərzində AzQAC Sağlamlıq və qayğı şöbəsi tərəfindən Azərbaycan Dövlət Pedaqoji, Sumqayıt Dövlət Universitetlərində və müxtəlif təşkilatlarda qanvermə aksiyaları təşkil olunmuşdur. Həmişə olduğu kimi bu aksiyalarda AzQAC-in daimi könüllü qan donorları olan Cəmiyyətin prezidenti Novruz Aslanov, vitse-prezidenti Qafar Əsgərzadə, İcraçı Katibin müavini, Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev, QAC Sumqayıt şəhər bölməsinin sədri Mətanət Məhərrəmova, digər işçi və könüllüləri qan vermişlər. Respublika Qan Bankının verdiyi məlumata görə il ərzində 5000- dən artıq insan könüllü təmənnasız qan vermişdir.

İyun ayının 14-də Azərbaycanda "Ümumdünya Qan Donoru Günü"nə həsr edilən "Hər bir qan verən insan – qəhrəmandır" şüarı ilə silsilə tədbirlər həyata keçirilmişdir. Bu günün qeyd olunması ölkələrdə könüllü təmənnasız qan donorluğunun təbliği ilə yanaşı, qan verib, həyat xilas edən insanları qəhrəman kimi təqdim etmək, atılan addımlarına görə onlara minnətdarlıq bildirməkdir. Bu həm də, qəhrəman olmaq arzusunda yaşayan, lakin o addımı atmağı düşünən gənclərə də bir nümunədir.

AzQAC-nin Sağlamlıq və qayğı şöbəsinin

əməkdaşları və könüllüləri iyun ayının 14-də Bakının Milli Parkında Laçın Rayonu, Çıraqlı kənd orta məktəbinin qan donorluğu haqqında təlimatlandırılmış 30 şagirdi ilə birgə təbliğat kampaniyası təşkil etmişdir. Xüsusi geyimdə (qırmızı rəngli papaq və köynək) olan bu könüllülər qan donorluğuna aid 1500 ədəd əyani vəsaiti Milli Parkda olan əhali arasında paylamışlar. Həmin gün AzQAC, Azərbaycan Donorlar Assosiasiyası və "İrəli" Gənclər İçtimai Birliyi-Tibb klubu ilə birgə "Könüllü təmənnasız Qan Donorluğu" adlı seminar təşkil etmişlər. 50 gəncin iştirak etdiyi seminarda qan vermiş 12 gəncə minnətdarlıq ifadə edilmiş, onlara kiçik hədiyyələr təqdim olunmuşdur.

**Nailiyyətlər:**

- İl ərzində sağlamlıqla bağlı maarifləndirmə fəaliyyətlərinə 21 243 nəfər cəlb olunmuşdur;
- AzQAC Sumqayıt Şəhər və Sabirabad Rayon Bölmələri nəzdində "Club 25" yaradılmışdır;
- Respublika Qan Bankının verdiyi məlumata görə il ərzində 5000 dən artıq insan könüllü təmənnasız qan vermişdir;
- İl ərzində 1044 nəfər İlk yardım vərdişlərinə yiyələnmişdir;
- İlk Yardıma aid 2100 ədəd vəsait və 100 ədəd təlim modulu hazırlanaraq çap edilmişdir;
- İl ərzində AzQAC sağlamlıq və qayğı şöbəsinin nümayəndələri ölkədə təşkilatlar arası görüş, konfrans və tədbirlərdə fəal iştirak etmişlər;

**Zərərin azaldılması**

**Məqsəd:**

Sağlam həyat tərzini və narkotik maddələrin istifadəsindən təsirlənən insanların ləyaqətini təbliğ etmək və eyni zamanda narkotik maddələrin istifadəsindən yaranan zərəri azaltmaq.

**Fəaliyyətlər:**

İl ərzində 8243 nəfər "Zərərin azaldılması" sahəsində maariflənmiş və biliklərə yiyələnmişdir. Eyni zamanda il ərzində "Zərərin Azaldılması" mövzusunda 2 "Giriş kursu" həyata keçirilmişdir. Həmin "Giriş kursları"nda 35 nəfər iştirak etmişdir. 2012-ci ildə "Zərərin Azaldılması" layihəsi çərçivəsində 3 kütləvi tədbir həyata keçirilmişdir. Tədbirlərdə ümumilikdə, 54 könüllü iştirak etmişdir. Həmin tədbirlər zamanı 3500 nəfərdən çox insan əhatə olunaraq maarifləndirilmişdir. Həmçinin, Azərbaycan QAC-in yerli bölmələrində "İctimaiyyət arasında məlumatın yayılması" üzrə təlimlər həyata keçirilmişdir. Təlimlərdə 35 könüllü iştirak etmişdir. Habelə, il ərzində "Narkotik maddələr istifadəçilərinə yanaşma" təlimi həyata keçirilmişdir. Həmin təlimdə 17 könüllü iştirak etmişdir. Layihə üzrə "Zərərin azaldılması" mövzusunda dəyirmi masa həyata keçirilmişdir. Dəyirmi masada 20 nəfər iştirak etmişdir. Daha sonra "Zərərin Azaldılması" adlı 2 kampaniya həyata keçirilmişdir. Kampaniyalarda 61 nəfər iştirak etmişdir və tədbirlər zamanı 4500 nəfərdən çox insan əhatə olunaraq maarifləndirilmişdir. Ilin sonunda "Monitorinq və qiymətləndirmə" üzrə təlim həyata keçirilmişdir. Həmin təlimdə 21 könüllü iştirak etmişdir.

**Təlimin proqramına aşağadakılar daxildir:**

1) narkotik maddələrdən istifadə və narkotik istifadəçilərinin özləri ilə birbaşa fəaliyyət göstərən müəssisələr / xidmətlər üzrə yanaşma və bacarıqların izahatı;

2) narkotik istifadəçiləri özləri və narkotik istifadəçiləri ilə fəaliyyət göstərən iş strukturları ilə işləmək metodologiyası;

3) istifadə oluna bilər alətlər: görüş, dəyirmi masa, təlim, rəsmi yazışma, şəxsi əlaqələr, telefon zəngləri. Doğru və aydın məlumatlar hər iki qrup insanlara çatdirilmalı, həm narkotik istifadəçilərə həm də qərar qəbul edən şəxslərə, eyni zamanda bu yonümdə psixoloji aspektlər nəzərə alınmalıdır.

Müxtəlif növ tədbirlərdə iştirak edən könüllülər Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan fəal könüllülərdir. Qeyd olunmalıdır ki, bütün həyata keçirilən tədbirlərdə ətraf regionlardan Azərbaycan QAC-in könüllüləri və əməkdaşları iştirak etmişlər.

**Nailiyyətlər:**

- Il ərzində proqram çərçivəsində 35 könüllü "Giriş kursları"nda "Zərərin azaldılması" mövzusunda treyner qismində hazırlanıb.
- "Narkotik maddələrin istifadəçilərinə yanaşma" təlimi vasitəsilə 17 könüllü treyner qismində hazırlanıb
- Kütləvi tədbirlər (2 kampaniya və 3 tədbir) zamanı "Zərərin azaldılması" adlı kampaniyalarda və müxtalif növ tədbirlərdə ümumilikdə, il ərzində 4 500-dən artıq insan iştirak etmişdir.
- Zərərin azaldılması tədbirlərində il ərzində 8 243 nəfər maarifləndirilmişdir.

**Çətinliklər, Problemlər:**

- Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyası, donor cəmiyyətləri tərəfindən maliyə dəstəyinin mütəmadi olmaması və eyni zamanda bir müddət dayandırılması "İcmada sağlamlıq" proqramının həyata keçirilməsində bir çox çətinlik və aşağıda göstərilən problemlərin meydana çıxmasına səbəb olmuşdur. Belə ki, könüllü sağlamlıq işçiləri və tibb bacıları üçün təlimlərin keçirliməsi, əhali arasında sağlamlıqla bağlı maarifləndirmə tədbirlərinin geniş şəkildə aparılması, qanvermə aksiyalarının təşkili, könüllü sağlamlıq işçilərinin və qan donorlarının həvəsləndirilməsi, əyani vasitələrin çapı, rayon və bölgələrdə sağlamlıqla bağlı fəaliyyətlərin monitorinq və qiymətləndirilməsi və s. kimi fəaliyyətlərin aparılmaması proqram göstəricilərinin (əvvəlki illərlə müqayisədə) aşağı olmasına təsir etmişdir.
- Eyni zamanda cəmiyyətdə əhalinin öz sağlamlığına dair diqqətin kifayət qədər olmaması, könüllülük prinsipinə zəif yanaşması, bununla da fəaliyyətlərə qoşulmaması, HİV/AİDS, Vərəm xəstələrinin təcrid olunması kimi problemlər hələ də mövcuddur və bu da fəaliyyətlərin geniş aparılmasına mane olur.

**Sağlamlıq haqqında maariflənən əhalinin sayı**




- Sağlam Həyat Tərzi
- Qan donorluğu
- HİV/AİDS, Vərəm
- İlk Yardım
- Süd Vəzi Xərçəngi


Mr. Shaban Shayev
d Crescent Society of Azerbaijan
. Riina Kabi
a Red Cross Society
Mr. Novruzali Aslanov
Red Crescent Society of Azerbaijan
Mr. Romualdas Dobrov
Lithuanian Red Cross Soci

# İNFORMASİYA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.

**Fəaliyyətlər:**

29 fevral- 02 mart tarixlərində Şimali Kipr Türk Cümhuriyyətinin Girnə şəhərində Beynəlxalq İslam Qızıl Ayparası Komitəsinin Beynəlxalq Humanitar Hüququn İslam ölkələrində pozulmasına dair beynəlxalq görüş təşkil olunmuşdur. Görüşdə iştirak edən ölkələrin əksəriyyəti müharibə və münaqişələrdən əziyyət çəkən ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin rəhbərləri olmuşdur. Görüşdə Beynəlxalq Qızıl Xaç Komitəsindən, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasından da nümayəndələr iştirak etmişlər. Görüşdə 35 ölkədən olan 90 təmsilçi iştirak edirdi. Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu görüşdə vitse-prezident Qafar Əsgərzadə və Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev tərəfindən təmsil olunmuşdur. Beynəlxalq Humanitar Hüququn, Cenevrə Konvensiyalarının müvafiq maddələrinin Azərbaycanda pozulmasına dair ingilis dilində olan 12 dəqiqəlik video-film iştirakçılara təqdim olunmuşdur. Film tarixi məqamlara əsaslanaraq Ermənistanın Azərbaycanda müharibə iddialarını, Dağlıq Qarabağda, xüsusilə Xocalıda soyqırımın həyata keçirilməsi, bunu sübut edən faktlar, hüquq pozuntuları əks etdirildi. Filmdən sonra Qafar Əsgərzadə çıxışında bir daha bu məsələləri görüş iştirakçılarının diqqətinə çatdırmışdır.

28- 31 mart tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruz Aslanovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin paytaxtı Ankara şəhərində Türkiyə Qızıl Ay Cəmiyyətinə rəsmi səfər etmişdir. Səfər Türkiyə Qızıl Ay Cəmiyyətinin prezidenti Ahmet Lütfi Akarın dəvəti əsasında baş tutmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndə heyətinə Cəmiyyətin vitse-prezidenti Qafar Əsgərzadə və Gənclər Komitəsinin sədr müavini, silahlara qarşı mübarizə proqramının kordinatoru Bayram Vəliyev də daxil olmuşdur. Görüşdə gələcək əməkdaşlığın əsas istiqamətləri müzakirə olunmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, millət vəkili, cənab Novruz Aslanov Türkiyənin TRT dövlət kanalına və digər yerli kanallara müsahibə vermişdir.

Aprel ayının 22-də Qazaxıstan Qızıl Aypara Cəmiyyətinin prezidenti Erkebek Arqımbayev Azərbaycan Qızıl Aypara Cəmiyyətində rəsmi görüşlər keçirmək məqsədilə Bakı şəhərinə səfər edib. Onu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Region üzrə nümayəndəsi Gyula Kadar müşaiyət etmişdir. Aprelin 23-də Erkebek Arqımbayev və Gyula Kadar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş ofisində Cəmiyyətin prezidenti Novruz Aslanovla görüşmüşdür. Görüşdən sonra qonaqlara Cəmiyyətin fəaliyyəti barədə geniş prezentasiya təqdim edilmişdir. Səfərin əsas məqsədi təcrübə mübadiləsi aparmaq, MDB

məkanında nümunəvi olan "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanunla ətraflı tanış olmaq və öz ölkələrində oxşar qanunun tətbiqində AzQAC təcrübəsindən istifadə etmək olmuşdur. Aprelin 24-də Novruz Aslanov və cəmiyyətin əməkdaşları qonaqlarla birgə Ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət etmişlər.

İyunun 22-də Bakıda Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında Əməkdaşlıq Sazişinin imzalanmasına həsr olunmuş rəsmi tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Beynəlxalq Miqrasiyya Təşkilatının Azərbaycandakı nümayəndəliyin rəhbəri cənab Serhan Aktoprak maraqlı statistik informasiya ilə birgə Beynəlxalq Miqrasiya Təşkilatının gördüyü işlərdən söz açmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Dr. Novruz Aslanov imzalanacaq Sazişin vacibliyini qeyd etməklə yanaşı, onun əhəmiyyətindən söz açaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinnə dair ətraflı məlumat vermişdir. Daha sonra əməkdaşlığın əsas istiqamətləri vurğulanmışdır. Rəsmi hissə bitəndən sonra Saziş imzalanmışdır.

İyun ayının 26-da Venesuela Qızıl Xaçının Prezidenti cənab Mario Villarroel Landarer və onu müşaiyət edən nümayəndə heyəti (Miguel Villarroel və Morris Villaroel) Azərbaycana rəsmi səfər etmişdilər. Səfər zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Venesuela Qızıl Xaçı arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, bununla əlaqədar gələcək strategiya və istiqamətlər müzakirə edilmişdir. Dostluq və işgüzar şəraitdə keçən görüşlərdə tərəfləri maraqlandıran digər məsələlərə də nəzər yetirlmişdir. Tərəflər arasında gələcəkdə təcrübə və informasiya mübadiləsinin aparılması qərara alınmışdır.

26–30 iyun tarixlərində Qırğızıstan Qızıl Aypara Cəmiyyətinin məsul əməkdaşı və könüllüləri təcrübə mübadiləsi məqsədilə Azərbaycana rəsmi səfər etmişdilər. Nümayəndə heyətinə: Svetlana Salimbayeva – "FH zamanı könüllülük fəaliyyəti" proqram kordinatorunun assistenti, Kubanıçbekov Salamat–könüllü, Bakıtov Tınçtıkbek– könüllü və Uyalov Raymbek– könüllü daxil olmuşdur. Səfər zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fövqəladə hallar zamanı könüllülərin fəaliyyəti və vaxtı-vaxtında zərər çəkmiş insanlara ilk yardımın göstərilməsi təcrübəsi qonaqlar tərəfindən öyrənilmişdir. Səfər əsnasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti millət vəkili Dr. Novruz Aslanov qonaqları qəbul etmişdir. Görüşdə iki Milli Cəmiyyətin dostluq əlaqələrindən söz açılmış, bu səfərin vacibliyi qeyd olunmuşdur.

İyul ayının 23-də Britaniya Qızıl Xaçının Baş Katibi Ser Nikolas Yanq və onu müşaiyət edən cəmiyyətin Fövqəladə Hallar şöbəsinin müdiri xanım Keti Atfild Azərbaycana rəsmi



səfər etmişdilər. Səfər zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti, Milli Məclisin Deputatı Dr. Novruz Aslanov ilə Britaniya Qızıl Xaçının Baş Katibi Nikolas Yanq arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, bununla əlaqədar gələcək strategiya və istiqamətlər müzakirə edilmişdir. Dostluq və

işgüzar şəraitdə keçən görüşlərdə tərəfləri maraqlandıran digər məslələrə də nəzər yetirlmişdir. Tərəflər arasında gələcəkdə fandreyzinq sahəsində təcrübə mübadiləsinin aparılması qərara alınmışdır.

5-7 sentyabr tarixlərində İngiltərənin London şəhərində Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri arasında "Fandreyzinq" üzrə bilik və bacarıqların bölüşməsinə dair Beynəlxalq Konfrans keçirilmişdir. Konfrans Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Federasiyası (BQXQACF) və Britaniya Qızıl Xaç Cəmiyyətinin (İQXC) təşkilatçılığı ilə baş tutmuşdur. Hər il keçirilən bu mühüm beynəlxalq görüşün əsas məqsədi Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərində "Fandreyzinq" (humanitar fəaliyyətlərin həyata keçirilməsi üzrə Cəmiyyətin hesabına daxil etmək üçün müxtəlif maliyyə fondlarının artırılması) üzrə bacarıq və biliklərin digərləri ilə bölüşməsidir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) də bu görüşdə cəmiyyətin İcraçı Katibinin müavini Şaban Şayev və Gənclər Komitəsinin rəhbəri, Silahlara Qarşı Mübarizə sektorunun rəhbəri Bayram Vəliyevlə təmsil olunmuşdur. Konfrans plenar iclas və böyük qruplar halında müvafiq mövzular üzrə müzakirələrin aparılması, yeni biliklərin paylaşması şəklində təşkil olunmuşdur.

23-26 sentyabr tarixlərində Belorusun paytaxtı Minsk şəhərində Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin rəhbərlərinin beynəlxalq görüşü keçirilmişdir. Görüşdə BQXQACF-nın Prezidenti cənab Tadateru Konoe və BQXK-nin məsul nümayəndələri iştirak etmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) də bu beynəlxalq görüşdə Cəmiyyətin Prezidenti, Millət Vəkili Dr. Novruz Aslanov, Cəmiyyətin İcraçı Katibi Bəylər Talıbov və İcraçı Katibin müavini Şaban Şayevin iştirakı ilə təmsil olunmuşdur.AzQAC-nin Prezidenti Dr. Novruz Aslanov beynəlxalq görüşün gündəliyində duran ən vacib məsələlərdən sayılan "Humanitar Diplomatiya" mövzusunda planlaşdırılan sessiyaya sədrlik etmişdir. Beynəlxalq görüş çərçivəsində bir çox Milli Cəmiyyətlər öz aralarında ikitərəfli razılaşmalar imzalanmış. AzQAC-nin Prezidenti Dr. Novruz Aslanov da AzQAC və Belorusiya Qızıl Xaç Cəmiyyəti, həmçinin Rusiya Qızıl Xaç Cəmiyyəti ilə Hərəkatdaxili ikitərəfli əməkdaşlıq üzrə razılaşma sənədi imzalamışdır. Cəmiyyətin İcraçı Katibi Bəylər Talıbov da beynəlxalq görüş zamanı "Milli Qızıl Aypara Cəmiyyətimizin Yerli Resurslarının Səfərbərliyi" haqqında hazırlanmış təqdimatı iştirakçıların diqqətinə çatdırmışdır.

Türkiyə Qızıl Ayının prezidenti Ahmet Lütfi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruz Aslanovun dəvəti ilə noyabrın 14-də Bakıya səfər etmişlər. Səfərin məqsədi ikitərəfli əməkdaşlıq, tərəfdaşlıq əlaqələri, əməkdaşlıq çərçivəsində ölkəmizdə zavallı insanlara ediləcək humanitar yardımların göstərilməsi, gələcək strateji xəttin müəyyən edilməsi, eləcə də tərəflər arasında anlaşma Memorandumunun imzalanması olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş ofisində Türkiyə Qızıl Ayının nümayəndə heyətinin rəhbəri Ahmet Lütfi Akarla Novruz Aslanovun görüşü olmuş və görüşdə gələcək fəaliyyətlər barədə müzakirələr aparılmışdır. Həmin gün Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin Nuri Paşa zalında Azərbaycan və Türkiyə Qızıl Aypara Cəmiyyətləri arasında Anlaşma Memorandumu imzalanmışdır. Sonra tərəflər mətbuat konfransında media və telekanalların suallarını cavablandırmışlar. Ertəsi gün qonaqlar Bakının görkəmli yerləri ilə tanış olmuşlar.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti

beynəlxalq əməkdaşlıqlarını genişləndirməkdə və xarici tərəfdaşları ilə əlaqələri daha da inkişaf etdirməkdədir. Belə ki, dekabrın 12-də İsrailin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri cənab Rafael Harpaz ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Dr. Novruz Aslanov arasında görüş keçirilmişdir. Görüşdə həmçinin, İsrailin Azərbaycandakı Səfirliyinin Missiya rəhbərinin müavini, ikinci katib Ronen Krausz, İqtisadiyyat və Ticarət əlaqələri departamentinin direktoru Hökümə Kərimova, AzQAC-ın İcraçı Katibi Bəylər Talıbov və İcraçı Katibin müavini Şaban Şayev də iştirak etmişlər. Görüş İsrailin Azərbaycanda yeni təyin olunmuş səfiri ilə AzQAC arasında tanışlıq məqsədi daşımışdır. Görüş çərçivəsində cəmiyyətin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov qonaqları salamlayaraq iki milli cəmiyyət arasındakı mövcud əlaqələr, birgə keçirilən layihələr barəsində söz açmışdır. Novruz Aslanov səfirdən Cəmiyyətlər arasında əlaqələrə töhfələr verəcəyinə əminliyini bildirmişdir.

**Nailiyyətlər:**

Cari ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həyata keşirdiyi tədbirlər və fəaliyyətlər barədə AzTV. Lider, Space, ATV, İTV, Xəzər və TRT televiziya kanallarında, "Yeni Təfəkkür", "Zerkalo", "Azərbaycan", "Respublika", "Vışka" qəzetlərində, 1news.az, Modern.az, Qaynarinfo, Ucnoqta.az, Trend, Kaspiy, SIA, AzerTac, APA, Day.az, Navigator.az, Aile-hekimi.az internet xeber agentliklərində və Cəmiyyətin internet səhifəsində toplam olaraq 210 məqalə işıqlandırılmış və məlumatlar verilmişdir. "Facebook" və "Twitter" sosial internet şəbəkələrindəki Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rəsmi səhifəsi yaradılaraq istifadəyə verilib və mütəmadi olaraq yenilənmişdir.

**Problemlər:**

Baş qərargahın Regional Mərkəz və Yerli Bölmələri ilə internet və elektron poçt əlaqələrinin olmaması.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsipləri-nin və Beynəlxalq Huma-nitar Hüququn əsaslarının yayımı.

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı**

**Məqsəd:**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç, Qızıl



Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaq.

**Qısa tarix**

BHH-un əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsi üçün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır. Yayım proqramı 1997-ci ildən BQXK-nin maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

**Fəaliyyətlər:**

Əhali arasında, xüsusilə də yeniyetmələr, gənclər, məktəblilər və tələbələr arasında Beynəlxalq Humanitar Hüququn və BQX\QAH-nın Fundamental prinsipləri haqqında məlumatların yayılması məqsədini özündə daşıyan proqram il ərzində fəaliyyətlərini uğurlu davam etdirmişdir. Proqramın fəaliyyət planına uyğun olaraq, il ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Regional Mərkəzlərindən olan Gənclər üzrə koordinatorlarına və Cəmiyyətin cəbhə xəttinə yaxın ərazilərdə fəaliyyət göstərən rayon bölmələrinin gənclər üzrə təlimatçılarına Bakı şəhərində 2 dəfə 3 günlük geniş seminar təşkil olunmuşdur. Seminar iştirakçılarına BHH-un əsasları, BQX/QAH-nın yaranması, tarixi, fəaliyyətləri, tərkib hissələri, Fundamental Prinsipləri, emblemləri, humanitar fəaliyyətləri, humanitar dəyərlər, AzQAC-nin yaranması, tarixi, missiyası, fəaliyyətləri, strategiyası və s. haqqında geniş məlumat verilmişdir. Seminarlarda AzQAC-nin Yayım Sektorunun rəhbəri və Milli Cəmiyyətin digər ekspertləri, BQXK-nın ekspertləri iştirak etmişlər.

AzQAC-nin Yayım sektoru il ərzində dövrü mətbuatda, xüsusilə də Milli Cəmiyyətin rəsmi internet səhifəsində və "Yeni Təfəkkür" qəzetində BHH-un əsaslarına dair, BQX/QA Hərəkatının fəaliyyətlərinə dair məqalələr dərc etdirmişdir.

AzQAC-nin Yayım Sektoru hər ayın sonunda Milli Cəmiyyətin Baş Qərargahında ay ərzində qeydiyyatdan keçmiş könüllülər üçün tanışlıq seminarını həyata keçirmişdir.

Cari ildə Yayım Sektoru Bakı Slavyan Universitetindən Cəmiyyətimizə təcrübəyə gələn tələbələrə Hərəkat və Cəmiyyətlə bağlı yayım təlimi keçmişdir.

Qərargahda fəaliyyət göstərən Yayım Sektoru tərəfindən 300 nəfər, Regional Mərkəzlərin gənclər üzrə kordinatorları və rayon bölmələrinin gənclər üzrə təlimatçıları tərəfindən 1700 nəfərə təlimlər keçirilmişdir.

**Problemlər:**

Yayım proqramının əsaslarını təşkil edən mövzular üzrə təbliğat və yayım materiallarının çap olunması üçün maliyyə vəsaitinin olmaması.





# TƏŞKİLATİ İNKİŞAF

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi, Cəmiyyətin regional mərkəzlərinin, yerli bölmələinin və ilk təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi vasitəsilə mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətləri həyata keçirmək məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək.

**Fəaliyyətlər:**

2012-cu ilin əvvəlindən etibarən, QAC-ın bütün regional mərkəz və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək təsdiq edilmişdir. Ötən ilin illik yekun hesabatları analız edilərək nəticələr müəyyən edilmişdir.

İl ərzində rüblər üzrə regional koordinatorlarla mütəmadi görüşlər keçirilmiş, gündəlik təşkilati məsələlər diqqət mərkəzində saxlanılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, rayon və şəhər bölmələrinin fəaliyyətlərinin gücləndirilməsi məqsədilə 35 yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar göndərilmişdir.

İlin maliyyə planlarının rüblər üzrə ödənişinin təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır.

May, iyun, iyul və sentyabr aylarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün yerli rayon, şəhər, sahə bölmələri üzrə hesabat- seçki konfransları keçirilmişdir. Konfranslarda rayon, şəhər, sahə bölmələri, ilk təşkilat rəhbərləri iki illik hesabatlarla çıxış edərək öz fəaliyyətləri barəsində geniş hesabat vermişlər. Bəzi bölmələrdə işçi islahatları aparılmış, yeni kadrlar işlə təmin olunmuşlar.

Cari il ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün yerli bölmələr tərəfindən əlamətdar günlər münasibətilə humanitar yönümlü, eləcə də müxtəlif tədbirlər keçirilmişdir. Belə ki, Cəmiyyətin müxtəlif rayon və şəhər bölmələri "Novruz", "Ramazan" və "Qurban" bayramlarında, 8 mart "Beynəlxalq qadınlar günü"ndə, təhsil bayramında və s. ehtiyacı olan insanlar üçün xeyriyyə aksiyaları keçirmişlər. Gənclər şöbəsinin təşkilatçılığı ilə "Təhsil günü" ilə əlaqədar İsmayıllı və Ağsu rayonlarında keçirilən aksiyada ehtiyacı olan yüzlərlə şagird məktəbli forması, çanta və digər dərs ləvazimatları ilə təmin olunmuşdur. Dekabr ayının 3-də 1 dekabr "AIDS-lə mübarizə günü" və 5 dekabr "Beynəlxalq könüllülər günü" ilə əlaqədar geniş tədbir keçirilmişdir.

Təhsil və Səhiyyə İdarələrində Cəmiyyətimizin təşkilati məsələlərlə bağlı mütəmadi görüşlər keçirilmişdir. Müxtəlif idarə və müəssisələr tərəfindən daxil olmuş müraciətlərə baxılaraq aidiyyatı üzrə müvafiq tədbirlər görülmüşdür.

Hər il olduğu kimi mərkəzi və yerli İcra Hakimiyyəti orqanları ilə iş birliyi və Cəmiyyətə göstərilən köməkliklər barədə "Hesabat" hazırlanaraq əlaqədar dövlət və hökumət strukturlarına təqdim olunmuşdur.

Bəzi rayon bölmələrinə internet xətti qoşulmuş, yeni kompyuterlərlə və faks aparatları ilə təmin edilmişdir.

**Nailiyyətlər:**

2011-ci ildə üzvlərin sayı 290310 nəfər təşkil etdiyi halda 2012-ci ildə cəmiyyətin üzvlərinin sayı 300256 nəfərə və İlk Təşkilatların sayı 7880-a çatmışdır.

Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, il ərzində bir neçə rayon bölməsi xidməti avtomobillə təmin edilmişdir. Eləcə də, 20 rayon bölməsi daxili imkanları çərçivəsində yeni kompyuterlər, faks aparatları və internet xəttləri ilə təmin olunmuşdur.

**Problemlər:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinin cildlənərək səliqəli formaya salınması və istifadə üçün daha münasibləşdirilməsi.

Regional Mərkəzlərin və Yerli bölmələrin yerləşdiyi ofislərin internet xətti ilə təmin edilməsi.

Üzvlük biletlərinin istifadə müddətinin bitməsi səbəbindən yeni üzvlük biletlərinin çap edilməsi.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin məlumat kitabçasının yenilənməsi.



**İlk təşkilatların sayı**




**Üzvlərin sayı**




Bowling
NEW
Azərbaycan Qızıl Aypara Cəmiyyəti
Azerbaijan Red Crescent Society

# GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

**Ümumi məqsəd:**

Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllülərin cəlbolunma, idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial çəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyaçı olan əhaliyə könüllü xidmətin səmərəliliyinin artırılmasıdır.

**Fəaliyyətlər:**

Cəmiyyətimiz üçün könüllülüyün inkisafi uzun müddətli sərmayə və öhdəlik deməkdir. Bu baxımdan könüllülərin idarə edilməsi Milli Cəmiyyət üçün vacibdir.

Cari ildə Beynəlxalq Federasiya tərəfindən ilin şüari gənclər fəaliyyəti olmuşdur. Bu şüarla kütləvi aksiyalar, kampanıyalar, dəyirmi masalar, treyninqlər, kurslar və s. tədbirlər keçirilməsinə yanvar ayından start verilmişdir.

Mart ayından Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Avstrya Qızıl Xaçı arasında Qrant Müqaviləsi imzalanmışdır. Bu müqavilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti Sumqayıt şəhər bölməsi daxilində fiziki çəhətdən zəif olan uşaqların sosial inteqrasiyası layihəsinin həyata keçirilməsi ilə əlaqədar olmuşdur.

**Layihənin məqsədi:**

Sumqayıt şəhərində 30 nəfər fiziki çəhətdən zəif olan, xroniki xəstə uşaqlara icma əsaslı yardım və həmyaşıd dəstəyi göstərmək olmuşdur.

Layihədə 15 könüllü 30 əlil uşağa xidmət göstərmişdir. Könüllülər həftədə üç dəfə olaraq həmin əlil uşaqlara baş çəkir, onların xəstəlik kateqoriyasına əsaslanaraq həmin uşaqlara şəkil çəkməyi, kompyuter biliklərini, toxuculuğu və s. fəaliyyətlər həyata keçirir və xəstə uşaqları təmiz havada gəzintiyə çıxarır.

Mart ayında Avstriya Qızıl Xaçının dəstəyi ilə əlil uşaqlara 5 ədəd əlil arabası, 18 ədəd notebook hədiyyə qismində bağışlanılmışdır və Sumqayıt şəhər bölməsinin təşkilati inkişafı üçün isə 4 ədəd kompyuter hədiyyə edilmişdir. Könüllülər noutbuk bağışlanılmış əlil uşaqlara kompyuter biliklərini və internetdən istifadə etmək bacarıqlarını öyrətmişlər. Noutbuk hədiyyə edilmiş əlil uşaqların evlərinə internet xətti çəkilmişdir. Uşaqların internet xətti ilə təmin olunmalarında məqsəd onların digər uşaqlarla rahat əlaqə qurmaları, dünyaya daha asan inteqrasiya etmək və əlaqə yaratmaqdan ibarət olmuşdur.

15 könüllü və Sumqayıt şəhər bölməsinin 5 işçisi üçün lider və sosial treyninq kursları həyata keçirilmişdir. Məqsəd həmin könüllülərin liderlik bacarıqlarına yiyələnməsi və gələcəkdə həmin əlil uşaqlarla işləmək bacarıqlarına yiyələnmələrindən ibarət idi. Layihə çərçivəsində sosial videoçarx ictimaiyyətə təqdim olunmuşdur.

Novruz bayramı ilə əlaqədar 30 əlil və 15 könüllünün iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə könüllülər tərəfindən əlil uşaqlar üçün müxtəlif nağıl səhnəcikləri hazırlanmış və konsert proqramı təşkil edilmişdir. Uşaqlar üçün ziyafət təşkil olunmuş və sonda onlara məktəb ləvazimatlarından ibarət bağlamalar verilmişdir.

Layihə çərçivəsində əlil uşaqların valideynləri hökumət və qeyri- hökumət təşkilatlarının nümayəndələri ilə birlikdə dəyirmi masa keçirmiş, həmin tədbirdə

mövcud problemlər və onların gələcəkdə həlli sahəsində müzakirələr aparılmışdır.

İyul ayında 30 əlil uşağa valideynləri və könüllülərlə birlikdə Novxanı çimərliyində uşaqlar üçün kampaniyalar təşkil edilmiş, onların gün ərzində həmin məkanda istirahəti üçün lazımi şərait yaradılmışdır. Avqust ayında həmin uşaqlar üçün Lənkəran rayonunda üç günlük yay istirahət düşərgəsi təşkil olunmuş və həmin düşərgədə 71 nəfər iştirak etmişdir. İstirahət zamanı Lənkəran rayonunda olan tarixi muzeylərə, dəniz kənarına, Astaranın "Yanar bulağı"na, Lerikin meşələrinə gəzintilər təşkil edilmiş və digər müxtəlif əyləncəli proqramlar həyata keçirilmişdir.

Proqram çərçivəsində könüllülərə uniformalar da, hədiyyə edilmişdir. Proqrama əsasən çap materialları, o cümlədən buklet, broşür, və s. çap olunmuşdur.

**Nəticə:**

20 könüllü və işçi psixi sosial yardım və əlil uşaqlara xidmət göstərmək sahəsində təlim almışlar.

30 əlil uşağa könüllü həmyaşıd dəstəyi göstərilmişdir və əlil uşaqların hüquqlarının qorunmasına və cəmiyyətdə fəal iştiraklarına köməklik göstərilmişdir.

Əlil uşaqların stiqmatizasiyasının azadılması məqsədi daşıyan məlumatlılığın artırılma kampaniyası milli cəmiyyət tərəfindən həyata keçirilmişdir.

**İsmayıllı rayonunun ucqar ərazilərində yaşayan zavallı ailələrdən olan 90 uşağın davamlı təhsil almasına imkan yaradılması istiqamətində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti**

**Məqsəd:** Azərbaycan Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllüərin idarəetmə sistemini qurmaq və sosial baxımdan zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin səmərəliliyini artırmaqdır.

Proqram çərçivəsində ucqar kəndlər olan Həftəsoy, Brovdal, Bəhliyan, Bilistan, Əhən, Tağlabiyan kəndlərindən olan uşaqları qonşu kəndlərdəki məktəblərə göndərməkdir. Hal-hazırda cəmiyyət tərəfindən həmin məktəbdə təhsil alan uşaqların yaxın kəndlərdə təhsillərini davam etdirmək üçün nəqliyyat vasitəsi təşkil olunmuş və uşaqların həftənin beş gününü yaxın kəndlərin məktəblərinə getmək problemi həll olunmuşdur. Həmin kəndlərdən olan sosial cəhətdən az təmin olunmuş ailələrdən 90 uşaq yay-qış məktəb uniformaları və dərs ləvazimatları ilə təmin olunmuşdur. 8 könüllü həmin məktəblərdə Qızıl Xaç və Qızıl Aypara hərəkatının tarixi, fundamental prinsipləri, dəyərlər, HİV/AİDS, yol təhlükəsizliyi, qan donorluğu, zərərin azaldılması və ilk yardıma dair seminarlar təşkil etmiş, bayram günlərində könüllüər tərəfindən konsert proqramları, viktorinalar, idman yarışları keçirilmişdir.

**Nəticə:**

Uşaqlar öz təhsilini davam etdirəcəklər.

- Valideynlərin uşaqlara sərf etdikləri xərclərin bir qismi azalacaq.
- Uşaqlar öz bilik və bacarıqlarını artıra biləcək.
- Hökumət və qeyri-hökumət strukturları ilə sıx əməkdaşlıq etməklə problem tədricən həll olunacaq.

**Uşaq evlərində sosial fəaliyyət**

**Məqsəd:**

1. Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək.
2. Onları maarifləndirmək və dərslərinə köməklik göstərmək.
3. Qismən də olsa onların müəyyən qayğılarını unutdurmaq.

Şağan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayon və şəhərlərdə yerləşən

kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır:

Uşaqların gəzintisi, rəsm, toxumaq, idman, musiqi, dərslərinə kömək, təsviri incəsənət və.s. Fəaliyyəti həyata keçirmək üçün ləvazimatlar alınıb uşaq evlərinə və könüllülərə istifadə üçün verilmişdir.

Suraxanı rayonunda yerləşən 7 saylı kimsəsiz uşaq evində 1 iyun- "Beynəlxalq uşaqların müdafiəsi ğünü" ilə tədbir keçirilmişdir. Tədbirdə 85 uşaq üçün bayram ziyafəti təşkil olunmuş, uşaqlar ücün hədiyyələr və konsert proqramı təşkil olunmuşdur.

### 31 dekabr "Dünya Azərbaycanlılarının həmrəylik günü və Yeni il bayramı

Dekabrın 26-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti, "Pak Dad" restoranlar şəbəkəsi və Avropa Litseyi xeyirxah məramlı aksiya həyata keçirmişlər. Avropa Litseyinin təşəbbüsü, Pak Dad restoranlar şəbəkəsinin dəstəyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə həyata keçirilmiş humanitar aksiyadan Suraxanı rayonunda yerləşən uşaq evinin sakinləri bəhrələnmişlər. Tədbir 31 dekabr "Dünya Azərbaycanlıların Həmrəyliyi" və "Yeni İl" bayramları münasibəti ilə həyata keçirilmişdir. Bayram şənliyi "Pak Dad" restoranında reallaşmışdır. Şənlikdə uşaq evinin sakinləri ilə birlikdə Avropa litseyinin şagirdləri birgə əylənmişlər. Belə ki, orada uşaqlar üçün bayram süfrəsi açılmış və rəngarəng musiqi proqramı təqdim olunmuşdur. Avropa litseyinin şagirdləri tərəfindən uşaq evinin sakinlərinə öncədən hazırlanmış maraqlı viktorinalar və oyunlar təqdim olunmuşdur. Tədbirdə həmçinin Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Avropa litseyinin şagirdləri tərəfindən uşaqlara müxtəlif hədiyyələr də verilmişdir.



"Pak Dad" restoranı isə öz növbəsində tədbir iştirakçılarını cürbəcür dadlı təamlarla sevindirməyə nail olmuşdur. Sonda iştirakçılar Pak Dad restoranlar şəbəkəsinin rəhbərliyinə, Avropa Litseyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinə təşkil olunmuş maraqlı bayram şənliyi üçün öz təşəkkürlərini bildirmişlər. Qeyd edək ki, tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rəhbərliyi, Cəmiyyətin Bakı şəhərində fəaliyyət göstərən rayon bölmə sədrləri, "Pak Dad" restoranlar şəbəkəsinin rəhbərliyi və eyni zamanda Avropa Litseyinin müəllimləri iştirak etmişlər. Sonda "Pak Dad" restoranlar şəbəkəsi və Avropa litseyinə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Fəxri Fərmanlar, Avropa litseyin şagirdlərinə isə Tərifnamələr təqdim olunmuşdur.

Sumqayıt şəhərində yerləşən məcburi köçkünlərin yaşadıqları yataqxanada 100 nəfər sosial cəhətdən zəif olan ailələrin uşaqlarına və Nərimanov rayonunda yaşayan valideynlərini itirərək qohum himayəsində yaşayan 31 uşaq üçün Yeni il şənliyi təşkil olunmuşdur. Şənlikdə könüllülər tərəfindən uşaqlara bayram sovqatları, ərzaq bağlamaları, geyim dəstləri və maraqlı səhnəciklər təqdim edilmişdir.

BQX/QA hərəkatının yaranması ilə əlaqədar may ayında Beynəlxalq Federasiya tərəfindən qəbul olunmuş "Könüllülər fəaliyyətdə" şüarına uyğun olaraq həmin tədbirdə könüllülər Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çap olunmuş xüsusi maykalarda yürüş keçirmiş, əhali arasında Qızıl Aypara barəsində broşurlar paylanılmış, Ayparanın video klipi gənclərə nümayiş etdirilmişdir. Daha sonra Sumqayıt şəhərində yerləşən Hüseyn Ərəblinski adına Dövlət Dram teatrında 600 nəfərlik tədbir keçirilmiş-dir. Həmin tədbirdə gənclər şöbəsinin fəaliyyətinin təqdimatı keçirilmiş və tədbir konsert proqramı ilə yekunlaşdırılmışdır.

### Treyninq Modul kursları

**Məqsəd:**

Treyninq modulun hazırlanmasında məqsəd:

Yeni gələn könüllüləri QAC-ın yerli bölmələri fəaliyyətində iştirakını təmin etmək və fəaliyyətlərə həvəsləndirməkdir.

İl ərzində 2841 nəfər modul treyninq kursunu dinləmiş, 90 nəfər Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllüləri isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirmişlər.

**Lider treyninq kursları**

7 regional mərkəzin gənclərlə iş üzrə koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə 243 nəfərə lider treyninq kursları keçirilmişdir.

Artıq lider treyninq keçmiş könüllülər öz regionlarında təlimə başlayıblar. Təlim çox uğurlu nəticələr verməkdədir.

Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir şəhərlərinin uşaq evlərində fəaliyyət göstərən 159 könüllü üçün sosial treyninq keçirilmişdir.

### Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri

**Məqsəd:**

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərilməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

İl ərzində 2 mərkəzi şuranın görüşü keçirilmişdir. Regional görüşlər isə Sumqayıt RM-də 2 dəfə, Mingəçevir RM-də 2 dəfə, Gəncə RM-də 2 dəfə, Lənkəran RM-də 1 dəfə, Bakı RM -də 2 dəfə, Sabirabad RM-də 2 dəfə. Umumilikdə 13 Mərkəzi və Regional Gənclər Şurasının görüşləri keçirilmişdir.

**Nəticə:**

Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşlərinin keçirilməsininin nəticəsi olaraq könüllülər artıq rayonlarda kordinasiyanı sərbəst şəkildə idarə edirlər.

### Könüllülərin elektron qeydiyyatının inkişaf olunması

**Məqsəd:**

Ölkə üzrə könüllüləri effektiv şəkildə toplayıb inkişaf etdirməkdir.

Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumqayıt,



Zaqatala, Mingəçevir, İsmayıllı, Şamaxı rayon və şəhərlərində, Gəncə RM-də yaradılıb. Digər rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyatı blanklarından istifadə olunur. Gələcəkdə regionlarda elektron qeydiyyatlardan istifadə olunması nəzərdə tutulmuşdur. Hər ay rayon bölmələrindən könüllülərin qeydiyyatı haqqında məlumatlar şöbəyə çatdırılaraq elektron qeydiyyatına daxil olunur. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərməsinə və kordinasiya olunmasına dəqiqlik gətirir. QAC üzrə könüllülərin ümumi sayi 22.550 nəfər təskil edir.

Bakı, Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-rayon bölmələrinin könüllüləri üçün "Könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir." Tədbir kampaniya xarakteri daşıyırdı. Tədbirlərdə regional mərkəzlərin və rayon bölmələrinin könüllüləri, Mərkəzi Gənc Könüllülər Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə kordinatorları, könüllülər və.s, ümumilikdə 10130 nəfər iştirak etmişdir.

"Gənclər günü" ilə əlaqədar Pedaqoji Universitetdə dəyirmi masa təşkil olunmuş, gənclərin bugünkü problemləri, gələcək məqsədləri və digər məsələlər sahəsində bir neçə qrup çərçivəsində müzakirələr aparıldıqdan sonra qruplar tərəfindən təqdimatlar olunmuşdur.

10 mart "Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılması günü" ilə əlaqədar Azərbaycan Dövlət Pedaqoji Universitetdə Talassemiyalı uşaqlar üçün tələbələr arasında qanvermə aksiyası həyata keçirilmiş və Cəmiyyətin prezidenti Novruz Aslanovla tələbələr arasında görüş keçirilmişdir. Görüş çərçivəsində cəmiyyətin prezidenti Novruz Aslanov tələbələri maraqlandıran suallara cavab vermişdir. Tədbir konsert proqramı ilə başa çatmışdır.

Dekabrın 3-də Rəşid Behbudov adına Dövlət Mahnı teatrında 1 dekabr "Ümumdünya AİDS-lə mübarizə günü" və 5 Dekabr "Beynəlxalq könüllülər günü" münasibəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə tədbir keçirilmişdir. Çoxsaylı könüllülərin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Qızl Aypara Cəmiyyətinin vitse- prezidenti Qafar Əsgərzadə çıxış etmişdir.

AİDS-lə Mübarizə Mərkəzinin əməkdaşı çıxış edərək Respublikada AİDS xəstəliyi haqqında məlumat vermişdir. Tədbirin iştirakçılarına AİDS xəstəliyinin qarşısının alınmasında fəal iştirak etdiklərinə görə təşəkkür etmişdir.

Tədbirdə 350 nəfər hökumət, qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil ocaqlarının tələbə və müəllim heyətləri, HİV-ə yoluxmuş xəstələr və onların ailələri iştirak edirdilər. Keçirilən tədbir təkcə istirahət, musiqi dinləmək deyil eyni zamanda cəmiyyətə ismarıc verməkdir.

Tədbirdə eyni zamanda rəsm müsabiqəsi təşkil olunmuş, qalib iştirakçılar mükafatlandırılmış və könüllülərə fəxri fərmanlar təqdim edilmişdir.

Tədbirin sonunda Respublikanın tanınmış müğənnilərinin iştirakı ilə konsert keçirilmişdir.

Könüllülərin sayı



# GƏNCLƏR KOMİTƏSİ ›››



# GƏNCLƏR KOMİTƏSİ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gənclər Komitəsinin (Az.QAC Gənclər Komitəsi) əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq gənc (uşaqlar, yeniyetmələr, məktəblilər, tələbələr, əlil uşaq və gənclər) insanlar arasında Könüllülük Hərəkatının inkişafı, Beynəlxalq Humanitar dəyərlərin aşılanması, sülh, qarşılıqlı hörmət və anlaşma ideyalarını geniş şəkildə yaymaq, gənclərin asudə vaxtlarının səmərəli keçməsi məqsədilə, maarifləndirmə, sağlam həyat tərzinin formalaşması və mənəvi rifahının yüksəldilməsi sahəsində fəaliyyətlər həyata keçirməkdən ibarətdir.

**Fəaliyyətlər:**

Dünyada gənclər iqtisadı inkişafda, sosial dəyişiklikər etməyə qadir olan böyük bir qüvvədir. Gənclərin müxtəlif problemlərini effektli həll etmək məqsədi ilə bu il Federasiya tərəfindən "Gənclər fəaliyyətdə"dir şüarı altında AzQAC Gənclər Komitəsi, gənclər və könüllülərlə silsilə tədbirlərin keçirilməsinə start vermişdir.

Gənclər və könüllülər Qızıl Ayparanın bütün fəaliyyətlərinə cəlb olunublar. Könüllülər və gənclər müxtəlif təlimlər alaraq İlk yardım, Modul, lider və sosial treyninqlər, HİV/AİDS, Vərəmin profilaktikası, düzgün qidalanma, bağırsaq xəstəliyinin profilaktikası, tütünün və spirtli içkilərin orqanizmə ziyanı kimi maarifləndirmə işləri aparırlar.

Cari ildə Qızıl Aypara Cəmiyyətinin gənc könüllüləri üçün növbəti lider treyninqi keçirilmişdir. Treyninqin proqramında kiçik layihələrin yazılması, planlaşdırılma, liderlik bacarıqları və s. kimi mövzular öz əksini tapmışdır. 3 gün ərzində keçirilən treyninqdə gənc könüllülər kiçik layihələr hazırlamışlar. Sonradan bu layihələri gerçəkləşdirmək mümkün olmuşdur. Layihənin adı: Qocalar evində 1 günlük istirahətin təşkili idi. Gənc könüllülər tərəfindən qruplarda iş zamanı layihə, iş adamına təqdim olunmuş və dəstəklənmişdir. Bu da könüllülərin sevincinə səbəb olmuşdur. Gənc könüllülər həmin kiçik layihəni Sabunçu rayonunun Bilgəh qəsəbəsində yerləşən qocalar evində həyata keçirmişlər. 500 nəfərdən ibarət olan qocalar evində könüllülər tərəfindən şirniyyat süfrəsi açılmış, musiqi-əyləncəli proqram təşkil olunmuş və sonda qocalara hədiyyələr təqdim olunmuşdur.

Hər ay Qızıl Aypara Cəmiyyətinə yeni cəlb olunan könüllülər üçün BQX və Qızıl Aypara hərəkatı haqqında məlumat xarakterli sessiyalar aparılır. İl ərzində yeni gəlmiş 90 nəfər könüllüyə BQX və QA Hərəkatı haqqında məlumat verilmişdir.

10 mart "Qızıl Aypara Günü" yaranması ilə əlaqədar QAC-nin əməkdaşları, gənc və könüllülərin iştirakı ilə ağacəkmə kampaniyası kemirilmişdir. Kampaniyada 325 nəfər iştirak etmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti daim könüllülük, mərhəmət və insansevərlik prinsiplərinə arxalanaraq, zavallı insanlara diqqət edir, qayğı göstərir. Bu gün cəmiyyətdə əhali arasında bu prinsiplərin daha geniş təbliğ olunmasına ehtiyac duyulur. Bu baxımdan AzQAC Region və Rayonları vasitəsilə aparılan fəaliyyətlərin nümayiş etdirilməsi, eyni zamanda yuxarıda sadalanan

prinsipləri təbliğ etmək məqsədilə Gənclər Komitəsi, Gənclər və könüllülər, Sağlamlıq və qayğı, İnformasiya və Beynəlxalq əlaqələr şöbələri tərəfindən "Mərhəmət sorağında - könüllü xidmət" adlı fotomüsabiqəni keçirmişdir. Müsabiqəyə 150 dən çox göndərilən fotoşəkil AzQAC-nin müsabiqə komitəsi tərəfindən baxılmış, qiymətləndirilmiş və 1, 2, 3 (1 yerə 3 nəfər iştirakçı) yerlər üzrə qaliblər seçilmişdir. Oktyabr ayının 31-də İçəri Şəhər "Abşeron" rəsm qalereyasında bu müsabiqənin yekunu kimi fotosərgi və qaliblərin mükafatlandırılmasına dair tədbir təşkil olunmuşdur.

Müsabiqə qalibləri üçün mükafatlar (hədiyyələr) "Qallery" hədiyyələr mağaza şəbəkəsi tərəfindən təqdim olunmuşdur.

Sonra həmin şəkillər Gənclər Komitəsi tərəfindən "Gənclər günü " münasibəti ilə ali təhsil ocaqlarında və məktəblərdə "Mərhəmət sorağında" adlı foto sərgi təşkil olunmuşdur. Eyni zamanda məktəblilər arasında futbol yarışları keçirilmiş və sonda qalib gələn komandalara hədiyyələr verilmişdir.

Hesabat ilində AzQAC Gənclər komitəsi zavallı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra humanitar fəaliyyətlər həyata keçirmişdir.

Mayın 7-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən bu əlamətdar günlə əlaqədar "Könüllülər fəaliyyətdə" şüarı ilə, Cəmiyyətin müxtəlif humanitar fəaliyyətlərində çalışan gənc könüllülərin iştirakı ilə, Bakı əhalisinin ən sevimli istirahət məkanlarından biri olan Dənizkənarı Milli Parkda yürüş keçirilmişdir.

Eyni zamanda 1 İyun "Uşaqların Beynəlxalq Müdafiəsi günü" ilə əlaqədar olaraq uşaq xəstəxanasında xəstəlikdən əziyyət çəkən uşaqlarla tədbir keçirilmişdir. Tədbir zamanı uşaqlara musiqili əyləncəli proqramlar, Azərbaycan nağıllarından ibarət səhnəciklər, intellektual oyunlar və s. təqdim edilmişdir. Sonda xəstə uşaqlara idman ləvazimatları, digər uşaqlara isə müxtəlif hədiyyələr təqdim edilmişdir.

13 sentyabr "Ümumdünya ilk yardım günü" ilə əlaqədar 4 məktəbdə "Küçə və yollarda təhlükəsiz davranış"adlı rəsm müsaqibəsi keçirilmişdir. Sonda rəsm müsabiqəsində qalib gələnlərə hədiyyələr verilmişdir.

"Yeni il" münasibəti ilə sosial vəziyyətləri zəif olan imkansız ailələrdən olan 190 uşağa "Azpetrol"- şirkəti tərəfindən biletlər verilmişdir. Həmin biletlərlə onlar Əl Oyunları sarayında keçirilən Yeni il şənliyində iştirak etmişlər.

Bu qəbildən olan tədbirlərin biri də Sumqayıt şəhərində yerləşən yataqxanada məskunlaşmış köçkün ailələrin uşaqlar üçün Yeni İl şənliyi keçirilmişdir. Şənlikdən 110 uşaq bəhrələnmişdir. Uşaqlar orada intellektual yarışlar, musiqili-əyləncəli proqramlar hazırlamış, sonda onlara dərs üçün ləvazimatlardan ibarət hədiyyələr verilmişdir.





# SİLAHLARA QARŞI MÜBARİZƏ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətini (AzQAC) Respublikada silahların (minalar, müharibənin partlayıcı qalıqları–MPQ) mülki əhali üçün yaratdığı humanitar problemlərin həllində fəaliyyət göstərən aparıcı təşkilat kimi, bu sahədə daha fəal, təkmilləşmiş, operativ bir qurum olaraq mina və partlamamış hərbi sürsatlardan (PHS) zərər çəkmiş icmalarda "Mina Risklərinin Azaldılması", "Mina Üzrə Maarifləndirmə", "Mina/MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkənlərin Ehtiyaclarına dair Məlumatların Toplanması", "Mina Qurbanlarına Yardım" və cəbhə bölgəsində yaşayan icmalarda müharibənin törətdiyi iqdisadi problemlərin aradan qaldırıması işində iqdisadi təhlükəsizliyin təmin olunması məqsədilə infrastruktur və s. humanitar yardım fəaliyyətlərinin təşkil olunması işini həyata keçirmək.

**Fəaliyyət:**

**AzQAC və ANAMA arasında əməkdaşlıq**

AzQAC və ANAMA arasında "Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması" üzrə 2011-ci ildə imzalanmış rəsmi Razılaşma Memorandumuna əsasən bu istiqamətdə təşkil olunan fəaliyyətlər ikitərəfli olaraq bu ildə də müvəffəqiyyətlə davam etdirilmişdir.

**Mina Qurbanlarına Yardım**

**Layihə:**

"Mina Partlayışı Zamanı Ailə Başçısını İtirmiş Ailələrə Sosial Dayaq".

Cari ildə Mina/MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin hadisədən sonrakı sosial durumunun qismən də olsa bərpası üzrə həyata keçirilən fəaliyyətlər Goranboy rayonunda davam etdirilmişdir. Qeydə alınmış 12 ailəyə layihə çərçivəsində iribuynuzlu heyvan (hər ailəyə 1 ədəd) alınaraq təqdim edilmişdir. Layihəyə BQXK maliyyə dəstəyi verərək tərəfdaşlıq etmişdir.

(Qeyd edək ki, layihə 2009-cu ildən başlanmışdır. Bu günədək ümumilikdə layihə çərçivəsində AzQAC Tərtər, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Ağdam, Ağcabədi, Füzuli və Goranboy rayonlarından ümumilikdə 74 mina qurbanı ailəsinə sosial dayaq olaraq dəstək vermişdir. 73 ailə AzQAC və BQXK arasında olan əməkdaşlıq çərçivəsində, 1 ailə isə ABŞ-nın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq edilərək dəstək almışdır).

**İnfrastruktur və əhalinin iqdisadi təhlükəsizliyinə yönələn layihələr / fəaliyyətlər:**

**İqtisadi təhlükəsizlik layihəsi.**

Hesabat ilində Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Britaniya Qızıl Xaç Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi birgə olaraq cəbhə xəttinə yaxın olan rayonlarda müharibənin vurduğu zərər nəticəsində sosial-iqtisadi cəhətdən əziyyət çəkən icmalarda "İqdisadi Təhlükəsizlik" layihəsini davam etdirmişdir. Layihə çərçivəsində bu il ümumilikdə Ağdam, Tərtər və Goranboy rayonlarından olan 11 kənddə (Ağdam – Orta Qərvənd, Ayaq Qərvənd, Çıraqlı, Mirəşəlli; Tərtər – Qaradağlı, Qapanlı, Qazyan, Həsənqaya, Şıxarx; Goranboy – Tap, Tap

Qaraqoyunlu; Mamırlı, Dördyol məcburi köçkün qəsəbələri) və 2 məcburi köçkün qəsəbəsində əhalinin sosial-iqdisadi durumunun gücləndirilməsi üzrə fəaliyyətlər həyata keçirilmişdir. Layihə çərçivəsində real ehtiyaclı ailələrin və icmaların sosial durumu qiymətləndirilərək onların öz istək və bacarıqlarına görə müvafiq çərçivədə yardımlarla təmin olunmuşlar. Layihə çərçivəsində həyata keçirilən və insanlara edilən yardım haqqında məlumat aşağıdakılardır:

**1)** Ağdam rayonunun Orta Qərvənd, Ayaq Qərvənd, Çıraqlı, Mirəşəlli kəndlərində; Tərtər rayonunun Qaradağlı, Qapanlı, Şıxarx kəndlərində və Mamırlı, Dördyol məcburi köçkün qəsəbələrində içməli və suvarma məqsədilə su sistemləri quraşdırılmışdır. Ümumilikdə 4665 nəfər su layihəsindən yararlanmışdır.

**2)** Bu il ümumilikdə layihə çərçivəsində 2039 ailə sosial durumun bərpası üçün birbaşa maliyyə məbləği əldə etmişdir.

**3)** Tərtər rayonunun Həsənqaya, Goranboy rayonunun Tap və Tap qaraqoyunlu kəndlərində icma layihələri (xeyir şər mağarlarının kəndlərin istifadəsi üçün alınıb verilməsi və s.) həyata keçirilmişdir. Ümumilikdə 2560 nəfər bu layihədən yararlanmışdır.

Qeyd edək ki, "İqtisadi Təhlükəsizlik" layihəsi 2011-ci ildən başlanmışdır. Layihə 2012-ci ildə də müvəffəqiyyətlə başa çatmışdır və növbəti ildə digər cəbhə xəttinə yaxın kəndlərdə həyata keçirilməsi planlaşdırılmışdır.

### Cəbhə xəttinə yaxın ərazilərdə gənclərin və icmanın inkişafına yönələn layihələr

2012-ci ilin may-sentyabr aylarında Qazax rayonunun 6 cəbhəyanı kəndində (Kəmərli, Quşçu Ayrım-Məzəm, Alpout-Abbasbəyli, Cəfərli-Bala Cəfərli, Fərəhli, Xanlıqlar) "İcmaların Möhkəmləndirilməsi" layihəsi həyata keçirilmişdir. "İcmaların Möhkəmləndirilməsi" layihəsi Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və İngiltərənin TAG Beynəlxalq İnkişaf (TAG Bİ) humanitar təşkilatının birgə təşəbbüsü və əməkdaşlığı ilə həyata keçirilmişdir. Bu pilot layihənin başlanmasına əsas bu kəndlərdə hələ 2005-ci ildən başlayaraq, AzQAC tərəfindən müvafiq müxtəlif humanitar səpkili layihələrin həyata keçirilməsi olmuşdur. 2005-2010-cu illər ərzində kəndlərdə AzQAC tərəfindən uşaqları silahlardan, minalardan, müharibənin partlayıcı qalıqlarından müdafiə etmək məqsədilə "Təhlükəsiz Oyun Meydançaları" inşa edilmişdir. "İcmaların Möhkəmləndirilməsi" layihəsinin əsas məqsədi uşaqlar, yeniyetmələr və gəncləri yay tətilində

| Adı | Sayı (nəfər) |
|---|---|
| Ağdam rayonunun Orta Qərvənd, Ayaq Qərvənd, Çıraqlı, Mirəşəlli kəndlərində; Tərtər rayonunun Qaradağlı, Qapanlı, Şıxarx kəndlərində və Mamırlı, Dördyol məcburi köçkün qəsəbələrində içməli və suvarma məqsədilə su sistemləri quraşdırılmışdır | 4 665 |
| Sosial durumun bərpası üçün birbaşa maliyyə məbləği | 2 039 |
| Tərtər rayonunun Həsənqaya, Goranboy rayonunun Tap və Tap qaraqoyunlu kəndlərində icma layihələri (xeyir şər mağarlarının kəndlərin istifadəsi üçün alınıb verilməsi və s.) həyata keçirilmişdir | 2 560 |

sinifdənxaric tədris vasitəsilə birliyə, dostluğa, icmalaşmağa, qarşılıqlı hörmətə və öz icması üçün birgə işə alışdırmaq olmuşdur. Məhz bu kimi keyfiyyətləri özündə formalaşdıran gənclər kəndlərində mövcud olan və onlara aid olan "Təhlükəsiz Oyun Meydançalarının", məktəblərinin, uşaq bağçalarının və s. kimi tikililərin qırılmış, sınmış hissələrini özləri birləşərək bərpa edə bilərdilər. Belə ideyaları düşünərək AzQAC və TAG Bİ təşkilatı layihənin həyata keçirilməsinə təşəbbüs etmişlər. Həmin 6 kənddə 2011-ci ildə bu iki humanitar təşkilatın əməkdaşlığı sayəsində yeniyetmələr və gənclər arasında Futbol Çempionatı da təşkil olunmuşdur. Layihə cəbhəyanı kəndlərin müharibə şəraitində olmasını nəzərə alaraq burada yaşayan icma üzvlərində birlik və qarşılıqlı hörmətin güclü səviyyədə qurulmasını, gözlənilməyən hallar zamanı, həmçinin, sülh dövründə güclü icma kimi kənddə mövcud olan problemlərin öhdəsindən gəlməyi bacarmağa yönəlmişdir. "İcmaların Möhkəmləndirilməsi" layihəsi yuxarıda deyilənlərlə bərabər bu ərazi üçün vacib olan digər fəaliyyətləri də özündə birləşdirmişdir. Belə ki, 4 ay müddətində (yay ayları: 15 may-15 sentyabr) həyata keçirilən layihədə həmçinin, kəndlərin aparıcı işçi qüvvəsi sayılan kənd icra nümayəndəliyi işçilərinə, kənd məktəb müəllimlərinə, kənd tibb işçilərinə, poçt işçilərinə, kitabxana işçilərinə bir sözlə bütün rəsmi dövlət işçilərinə səhiyyə maarifi və ilk yardım təlimləri də keçirilmişdir. Bundan əlavə kəndlərdə yeniyetmə və gənc qızlar, qadınlar da layihədən kənar qalmayaraq xalça toxuculuğu kurslarına cəlb olunmuşlar.

**Digər əməkdaşlıq**

Cari ildə AzQAC Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində ənənəvi tərəfdaş sayılan BQXK ilə birgə fəaliyyətlər davam etdirilmişdir. BQXK tərəfindən AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramı texniki və maliyyə dəstəyini almışdır.

AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi mütəmadi olaraq BQXK-nin Azərbaycandakı Nümayəndəliyində bu sahəyə məsul olan müvafiq nümayəndələrlə görüşlər keçirmiş, müzakirələr etmişdir. AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramı BQXK-nin dəstəyi ilə dekabr ayında cəbhə xəttinə yaxın ərazilərdə fəaliyyət göstərən rayon bölmə sədrləri üçün 3 günlük ənənəvi görüş təşkil etmişdir. Görüşdə AzQAC, BQXK, ANAMA və AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası) rəsmiləri iştirakçılarla görüşərək il ərzində cəbhə xəttinə yaxın ərazilərdə silahlar əleyhinə həyata keçirilmiş humanitar fəaliyyətlər və gələcək fəaliyyətlər haqqında müzakirələr etmişlər.

Silahlara Qarşı Mübarizə fəaliyyətləri ilə əlaqədar olaraq il ərzində AzQAC-nin bu proqram üzrə məsləhətçisi BQXK, BQXQACF (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası), Almaniya Qızıl Xaç Cəmiyyəti, "TAG Beynəlxalq İnkişaf", Yaponiyanın Azərbaycandakı səfirliyi, "Japan Tobacco İnternational", ANAMA, AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyi) və s. təşkilat və şirkətlərlə görüşlər keçirmiş, layihələr ətrafında müzakirələr aparmış, seminar, treyninq və konfranslarda iştirak etmişdir.


aycan Qızıl Aypara
aijan Red Crescent

# FANDREYZİNQ VƏ GƏLİR GƏTİRMƏ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyə mənbələrini artırmaq.

**Fəaliyyətlər:**

İl ərzində şöbənin əsas fəaliyyəti Cəmiyyətin maliyə bazasının gücləndirilməsi məqsədilə maliyə mənbələrinin artırılması, ianəçilər tərəfindən edilən ianələrin toplanması, eyni zamanda Cəmiyyətin strateji planına uyğun olaraq, müxtəlif şirkət və donorlarla əməkdaşlığın qurulması, mövcud olan işgüzar əlaqələrin inkişaf və davam etdirilməsindən ibarət olmuşdur.

Bu məqsədlə şöbə tərəfindən bir sıra şirkət, bank, ticarət və əyləncə mərkəzlərinin və s. obyektlərin məsul şəxsləri ilə işgüzar görüşlər keçirilmişdir. Həmin görüşlərdə Cəmiyyətin missiyasına uyğun olaraq, Cəmiyyətlə mümkün ola biləcək əməkdaşlıq sahələri müzakirə edilmişdir.

Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ticarət, iaşə obyektləri ilə razılıq əldə olunaraq həmin yerlərdə müvafiq qaydada 16 ədəd ianə qutusu yerləşdirilmişdir.

İl ərzində ianə qutularından cəmi 18.416.60 manat məbləğində pul vəsaiti toplanaraq müvafiq qaydada Cəmiyyətin kassasına mədaxil edilmişdir.

İanə qutularının yerlərdə yerləşdirilməsinin əsas məqsədi toplanan pul ianələri hesabına zavallı insanlara, yəni fövqəladə hallar və təbii fəalkətlər zamanı zərər çəkmişlərə, tənha qocalara, kimsəsizlərə və aztəminatlı insanlara müvafiq yardımlar etmək olmuşdur.

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyi ilə 2012-ci ildə Cəmiyyətin fandreyzinq sahəsinin inkişafı məqsədilə görüş keçirilmişdir.

Fandreyzinq və gəlir-gətirmə fəaliyyətinin müvafiq qaydada həyata keçirilməsi üçün şöbədə lazımi məlumat bazası yaradılmış, müvafiq norma və standartlar təkmilləşdirilmişdir.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyi tərəfindən Cəmiyyətin fandreyzinq fəaliyyətinə dəstək məqsədilə ayrılmış maliyə dəstəyi hesabına Cəmiyyətin missiyasını və fəaliyyətlərini əks etdirən 2800 ədəd məlumatverici broşür və 30 ədəd ianə qutusu hazırlanmışdır.

31 mart- 5 aprel tarixlərində AzQAC-ın Fandreyzinq şöbəsinin işçilərinin bilik və təcrübəsini təkmilləşdirmək məqsədilə Türk Qızılayına səfər edilmişdir. Səfər zamanı Türk Qızılayının Bağış Yönetimi Bölümü tərəfindən Türk Qızılayının Bağış Yönetimi Bölümünun müdiri Bülent Bilgin, bölümün birim yöneticisi Neslihan Özdemir, bölümün əməkdaşları Pınar Caltekin və Arzu Turhanın iştirakı ilə Türk Kızılayının fandreyzinq fəaliyyətinə dair geniş prezentasiya təqdim olunmuşdur. Prezentasiyadan əldə edilən bilik və təcrübələrin tətbiqinə dair işlərin görülməsinə başlanılmışdır.

Digər inkişaf etmiş ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin təcrübələrinə əsaslanaraq ianələrin toplanılmasında rahat, operativ, eləcə də, günümüzün müasir tələblərinə cavab verən metodlar üçün yeni layihə hazırlanmışdır. Layihənin əsas məqsədi bankomatlar vasitəsilə ianə edilməsinin daha asan və operativ olmasını təmin etməkdən

ibarətdir. Bununla əlaqədar müvafiq işgüzar görüşlər keçirilmişdir. Bu görüşlərin nəticəsi olaraq 20.06.2012-ci il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti, "Azericard" MMC və Bank Respublika ASC arasında üçtərəfli əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən, ianəçilər bankomatlar və eyni zamanda Cəmiyyətin rəsmi internet səhifəsi olan www.redcrescent.az saytına daxil olmaqla zavallı insanlara yardım etmək üçün internet vasitəsilə (onlayn ianə) öz pul ianələrini asanlıqla Cəmiyyətin müvafiq bank hesabına köçürə biləcəklər. Artıq layihədə qeyd edilən sistem fəaliyyətə başlamışdır.

Bu il, həmçinin, Azərbaycan Qızıl Aypara Cəmiyyəti İranın Təbriz vilayətində baş vermiş zəlzələ zamanı zərərçəkmiş insanlara yardım etmək məqsədilə İrana yardım kompaniyası həyata keçirmişdir.Kompaniya zamanı toplanmış 22 129 manat məbləğdə pul vəsaiti təbii fəlakətdən zərərçəkmiş insanlarının rifahının yaxşılaşdırılması üçün İrana göndərilmişdir.

4-5 dekabr tarixində Bakı şəhəri, Novxanı qəsəbəsində yerləşən "Olimpik İdman və İstirahət Kompleksi"ndə BQXK-nın maliyə dəstəyi ilə AzQAC-ın Fandreyzinq şöbəsinin regionlarda fandreyzinqin inkişaf etdirilməsi ilə əlaqədar treyninqi keçirilmişdir. Treyninq 6 regional mərkəzin (Bakı, Mingəçevir, Sumqayıt, Sabirabad, Gəncə, Lənkəran) nümayəndələrinin iştirakı ilə keçirilmişdir. İştirakçılara bu günə qədər fandreyzinq və gəlir-gətirmə sahəsində görülmüş işlər haqqında məlumat verilmiş, yeni broşür və yeni dizaynda ianə qutuları göstərilmişdir. Treyninqin sonunda isə görüş iştirakçılarının fikir və təklifləri dinlənilmiş, müzakirə edilmişdir. Treyninqdə Fandreyzinq şöbəsinin müdiri Xalid Xəlilov və şöbənin asisstenti Emil Seyidəliyev iştirak etmişdir.

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti ianə qutularının yerləşdirilməsində yaratdığı şəraitə görə öz təşəkkürünü bildirir:**

- Beynəlxlaq Bankın rəhbərliyinə və onun bəzi filiallarına
- Park Bulvar Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində fəaliyyət göstərən ayrı-ayrı mağaza, kafe, restoran, əyləncə mərkəzi və s. obyektlər
- ASB-nin Park Bulvar Ticarət mərkəzindəki filialına
- Çudo Peçka mağazalar şəbəkəsinə
- Sevimli Dad mağazalar şəbəkəsinə
- My Brends klubuna və kluba daxil olan ayrı-ayrı mağazalara
- Favorit Market
- Toyota Bakı Mərkəzinin satış salonuna
- Bakı Əyləncə Mərkəzinə
- MUM-a
- NLT Telekom mağazalar şəbəkəsinə
- Böyük Fırat restoranlar şəbəkəsinə
- Anadolu restoranına
- 5 qazan restoranına
- La Parfumerie mağazalarına
- Ət və Süd məhsulları mağazasına
- Bella 2 və Fenara gözəllik salonuna
- Sea View Plazaya
- Kosmoland (uşaq əyləncə mərkəzi)
- Pak Dad restoranlar şəbəkəsinə

**Nailiyyətlər:**

- 2011-ci il ilə müqayisədə 2012-ci ildə ianə qutularından toplanılan ianələrin 6.717.53 manat çox olması.
- 2012-ci ildən artıq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin özünün potensial donora çevrilməsi.
- Yerlərdə 16 ədəd ianə qutusunun yerləşdirilməsi.
- Bankomatlar vasitəsilə ianə edilməsinə dair layihənin hazırlanması və layihənin uğurla həyata keçirilməsi.
- İnternet vasitəsilə ianə edilməsi üçün sistem layihəsinin olması və sistemin




tətbiqinə başlanılması.

- BQXK-nın Azərbaycan Nümayəndəliyi tərəfindən fandreyzinq sahəsinin inkişafına marağın artması.
- Fandreyzinq və gəlir-gətirmə sahəsində fəaliyyətlərin müvafiq qaydada həyata keçirilməsi üçün məlumat bazasının yaradılması, norma və standartların təkmilləşdirilməsi.
- Əldə edilmiş razılığa əsasən BQXK tərəfindən 30 (otuz) ədəd ianə qutusunun və 2800 (iki min səkkiz yüz) ədəd məlumat verici broşürlərin hazırlanması.
- BQXK-nın maliyyə dəstəyi ilə AzQAC-ın Fandreyzinq şöbəsinin işçilərinin bilik və təcrübəsini təkmilləşdirmək məqsədilə Türk Qızılayına səfər edilməsi.

**Problemlər:**

- Xidməti nəqliyyat vasitəsinin olmaması.
- Layihələrə donorların kifayət qədər marağının olmaması.
- İnternet xəttinin olmaması.





# YERLİ BÖLMƏLƏRİN İNKİŞAFI

**Məqsəd:**

Proqramın məqsədi sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmələri strukturlarının və imkanlarının gücləndirilməsi.

**Fəaliyyətlər:**

İllik fəaliyyət planına əsasən "Yerli bölmələrin İnkişafı" layihəsi çərcıvəsində yanvar ayında Bakı şəhərində görüş keçirilmişdir. Görüşdə Gəncə, Mingəçevir, Ismayıllı, Sabirabad və Zaqatala bölmələrinin işçiləri və könüllüləri iştirak etmişdirlər. İştirakçılar bir çox maraqli təkliflə çıxış etmişdir. Nəticələr əldə etmək məqsədilə treyninqin formatını asanlaşdırmaq təklif edilmişdir. Bu məqsədlə icma əsaslı layihələrin necə tərtib edilməsinə dair müzakirələr aparılmışdır. Müzakirələrin nəticəsi olaraq bu cür treyninqlərin tez-tez keçirilməsi vurğulanmışdır. Treyninqdə icma rəhbərlərinin fəallığı treyninqin daha da maraqlı keçməsinə zəmin yaratmışdır.

Bölmə sədrləri seçilmiş icmaların hər birinin infrastrukturunu, yerləşdiyi yeri, avadanlıqların olub-olmamasını plana salmaq üçün seçilmiş icmaların hər birinə baş çəkmişdir. Bu məlumat bölmələrdə icmaların öz işini daha səmərəli planlaşdırmaq və əlaqələndirməyə köməklik olunması baxımından çox əhəmiyyətli olmuşdur.

Planlaşdırma işinin ardınca Qızıl Ayparanın bölmə könüllüləri icma üzvləri ilə birlikdə yerli problemləri və ehtiyacları müəyyən etmək, habelə Qızıl Aypara işinə olan marağın səviyyəsini müəyyən etmək məqsədilə sorğu aparmışlar.

İllik plana uyğun olaraq, bölmələrdə tədbirlər keçirilmişdir. İcmalar arasında futbol yarışı təşkil edilmişdir. Həmçinin Qızıl Aypara bölmələri tikməyi, rəqs etməyi, musiqi alətlərində çalmağı və ya şahmat oynamağı öyrənmək üçün hədəfə alınmış kənd və kiçik kəndlərdə insanların müxtəlif sosial, idman və incəsənət dərnəklərində qruplaşmalarına köməklik etmişlər.

"Yerli bölmələrin İnkişafı" layihəsi çərçıvəsində işçi heyəti sayının məhdudluğu üzündən icma könüllüləri ilə işi əsasən Qızıl Aypara gənclər təlimatçıları əlaqələndirmişlər. İcma təşəbbüs qrupları ilə olan iş də daxil olmaqla Qızıl Ayparanın bütün fəaliyyətində bölmə sədrləri nəzarət etmişlər. Könüllülər hər ay öz fəaliyyətinə dair gənclər koordinatoruna, gənclər koordinatoru sədrə, icma səhiyyə maarifçiləri isə bölmə sədrinə hesabat vermişlər.

Layihə çərçivəsində Zaqatala və Sabirabad bölmələrində "Monitorinq və Qiymətləndirmə" mövzusuna dair fevral ayında iki treninq keçirilmişdir. Treyninqdə 67 nəfər ıştirak etmiş və icmalar ilk yardım çantaları ilə təmin olunmuşdur.

Mart ayında Gəncə şəhər bölməsində Monitorinq mövzusuna dair treyninq keçirilmişdir. Treyninqdə 23 nəfər icma üzvü iştirak etmişdir. Treyninq çox faydalı və əhəmiyyətli olmuşdur.

Bölmələrin maddi-texniki bazası gücləndirilmişdir. Bu da Qızıl Aypara işçilərinin və könüllülərinin özünə inamı, maraq və həvəsini artırmışdır. İnternetə girmək imkanı daha çox könüllüləri bölmə

fəaliyyətinə cəlb etmişdir. Bölmələr üçün hər ay internet və danışıq kartları nəzərdə tutulmuşdur.

Həmçinin, Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Federasiya ilə birlikdə hazırlanmış plana uyğun olaraq həmin bölmələrdə müxtəlif növ tədbirlər həyata keçirilmişdir. Məsələn, Beynəlxalq Hüququn yayımı, İlk yardım vərdişlərinin öyrədilməsi, sağlamlıq haqqında maarifləndirmə və sair.

Aprel ayında Cəmiyyətin missiyasına uyğun olaraq, bölmələrdə tədbirlər keçirilmişdir. Tədbirdə rəsm qalereyası və folklor dramı yarışları təşkil edilmişdir. Yarışın qaliblərinə müxtəlif cür hədiyyələr verilmişdir. Tədbirə yerli hökumət, qeyri-hökumət nümayəndələri dəvət olunmuşdur.

8 May "Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günü" bölmələrdə qeyd edilmişdir. Azərbaycan QAC-nin fəaliyyətinə dair foto sərgi təşkil olunmuş, icma gənclərinin iştirakı ilə Qızıl Xaç Hərəkatının tarixinə dair viktorina təşkil edilmiş, bölmə işlərinə dair vərəqələr paylanılmışdır.

May ayında Sabirabad bölməsində "Qiymətləndirmə" mövzusuna dair treyninq keçirilmişdir. Treyninq 25 icma üzvünü əhatə etmişdir. Treyninqə həmçinin, yerli icra orqanlarının nümayəndələri dəvət olunmuşdur.

Layihə çərçivəsində iyun ayında Gəncə bölməsində "Hesabat və monitorinq" movzusuna dair treyninq keçirilmişdir. Treyninqdə 27 nəfər icma üzvləri iştirak etmişdir.

Noyabr ayında həmin bölmələrin icmalarında "İcmada fövqəladə hallar riskinin qismən azaldılması" mövzusuna dair silsilə tədbirlər keçirilmişdir. Tədbir maarifləndirmə xarakterli olmuş və cəmiyyətin rolu müəyyən edilmişdir. Tədbirə yerli icra nümayəndələri və digər təşkilatların nümayəndələri dəvət olunmuşdur. Tədbirdə Cəmiyyətin fəaliyyətini əks etdirən bukletlər paylanılmışdır.

İcmalarda yaradılmış dərnəklərin uşaqların və yeniyetmələrin böyük marağına, bilik və bacarıqlarının artırılmasına öz müsbət təsirini göstərmişdir.

**Nəticələr:**

Sentyabr ayında Milli Cəmiyyətin bölmələri hazırkı layihə daxilində özlərinin işinin yerinə yetirilməsini, nailiyyətlərini nəzərdən keçirmək üçün görüşmüşlər. Onlara bir sıra tövsiyələr verilmişdir:

- Digər layihələri bölmə inkişafına daha da yaxşı inteqrasiya etdirmək üçün bölmələrlə baş qərargahdakı müvafiq şöbələr arasında əlaqələndirməni yaxşılaşdırmaq.
- AzQAC özünün üzvlük sistemini yaxşılaşdırmalı və üzvlük haqqlarının müntəzəm ödənilməsi üçün yollar aramalıdır.
- Bölmələr üçün hesabatvermə, monitorinq və qiymətləndirmə üzrə treyninqlərin müntəzəm olaraq davam etdirilməsi zəruridir.

# HUMANİTAR YARDIM ›››



# HUMANİTAR YARDIM

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha – xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.

**Fəaliyyətlər:**

Azərbaycan QAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif səpkili müraciətlər daxil olur. Milli Cəmiyyət humanist prinsipləri rəhbər tutaraq, həmişə olduğu kimi müraciətlərə fərdi qaydada baxmış, hər bir müraciət barəsində müvafiq qərar qəbul olunmuş və imkan daxilində humanitar yardım göstərilmişdir.

Azərbaycan QAC rəhbərliyinin və Katibliyin humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilmişdir. Rayon bölmələrində də bu cür qəbulların keçirilməsi artıq bir çox yerli bölmələrin fəaliyyətində öz əksini tapmışdır.

İl ərzində Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların yerli bölmələri üzrə sayının dəqiqləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi daima davam etdirilmişdir. Aztəminatlıların qeydiyyata alınması yerli bölmələrin özləri tərəfindən müvafiq kateqoriyalara uyğun müəyyənləşdirilmişdir.

Cəmiyyət Humanizm prinsiplərini rəhbər tutaraq, bu ildə də əhalinin aztəminatlı təbəqəsinə, xroniki xəsta ahıl– tənhalara və digər yardıma ehtiyaci olan insanlara öz imkanları daxilində humanitar yardım göstərmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas fəaliyyət prioritetlərindən biri də Cəmiyyətin mümkün olan bütün imkanlarını və insanlığın gücünü səfərbər etməklə zavallı insanlara tibbi və sosial xidmət göstərməkdən ibarət olmuşdur.

Bu gün təkcə Bakı Regional Mərkəzi üzrə 4000 nəfərə yaxın, digər RM-lər üzrə 8000 nəfərdən artıq, ümumilikdə 12000 nəfərə qədər yardıma və tibbi-sosial xidmətə ehtiyacı olan ahıl tənha, xroniki xəstə yerli bölmələrdə qeydiyyatdadır.

**"Mərhəmət sorağında" pilot layihə:**

Bakı şəhərində yaşayan və qeydiyyatda olan bir qrup daha çox yardıma və tibbi– sosial qayğıya ehtiyacı olan zavallının rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanovun maliyyə dəstəyi və təşəbbüsü ilə 01 avqust 2008-ci il tarixdən başlanmış "Mərhəmət sorağında" adlı pilot layihə 2012-cu ildə də davam etdirilmişdir.

Layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, yerli bölmə əməkdaşlarının, tibb bacılarının və könüllülərin gücünü səfərbər edərək tibbi – sosial xidmət sahəsinə yönəltmək olmuşdur.

Rəhbərlik tərəfindən layihənin həyata keçirilməsi üzrə cavabdeh şəxslərin siyahısı

təsdiq edilmiş, icra mexanizmi, humanitar yardımın miqdarı və tibbi - sosial xidmətin təsnifatı layihədə öz əksini tapmışdır.

"Mərhəmət sorağında" pilot layihə hesabat ilində Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə layihə çərçivəsində Cəmiyyətin prezidentinin təşəbbüsünə qoşulmuş rayon bölmə sədrlərinin şəxsi vəsaitləri ilə edilən yardımlar da nəzərə alınmaqla ümumilikdə, 47 zavallı insana hər ay zəruri ərzaq və tibbi–sosial xidmət üzrə yardım göstərilmişdir. İl ərzində layihə çərçivəsində 564 nəfər qeydiyyatda olan aztəminatlıya 5.380 manatlıq zəruri ərzaq məhsulları ilə humanitar yardım göstərilmişdir.

Qeyd edək ki, ümumilikdə layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008 -dekabr 2012) layihə ilə əhatə olunmuş 2726 nəfər aztəminatlı insana 26.168 manat məbləğində zəruri ərzaqla yardım edilmiş, təmənnasız olaraq 6 növ müxtəlif tibbi–sosial xidmətlər (qan təzyiqinin ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, imkan olan dərmanla kömək və s.) göstərilmişdir.

Bakı Regional Mərkəzinin strukturuna daxil olan rayon bölmələrində layihənin uğurlu gedişini təsvir edən xüsusi guşələr tərtib edilmiş, Katiblikdə isə layihə ilə bağlı yaddaş foto albomu da yaradılmışdır. Cəmiyyətin rəhbərliyi tərəfindən bu humanitar layihənin əhatə dairəsinin gələcəkdə genişləndirilməsi nəzərdə tutulur.

**Əməkdaşlıq və humanitar tədbirlər:**

Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılmışdır.

İl ərzində İran İslam Respublikasının Qızıl



Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 386 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir. Təmənnasız göstərilmiş tibbi müayinənin dəyəri 28.950 manat təşkil etmişdir.

Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur. Hesabat dövründə Azərbaycan QAC-in yerli bölmələri tərəfindən də ümumilikdə belə humanitar-xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı, valideyin qayğısından məhrum olmuş uşaqlar iştirak etmiş, onlara müxtəlif yardımlar paylanılmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

| **Humanitar yardımın mənbəyi** | **Humanitar yardımın növü** | **Əhalinin Kateqoriyaları** | **Yardım göstərilən insanların sayı** | **Məbləğ (AZ.N)** |
|---|---|---|---|---|
| Şəxsi ianələr və s. | Ərzaq, paltar və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, valideyin qayğısından məhrum olmuş uşaqlar | 564 | 5.380 |
| Azərbaycan QAC və İran QAC-nin Bakı şəhərindəki klinikası | Təmənnasız tibbi müayinə və güzəştli aptek xidməti | Ahıl yaşlı,tənha kimsəsiz insanlar, aztəminatlı ailələr və məcburi köçkünlər | 386 | 28.950 |
| QAC şəhər,rayon bölmələrinin üzvlük haqqı və digər mənbədən daxil olan vəsaitlər | Ərzaq, paltar,məişət və sanitar, gigiyenik dəstlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr və məcburi köçkünlər | 23.715 | 442.141 |
| | **Cəmi:** | 24.665 | 476.471 | |

**Nailiyyət:**

Humanitar fəaliyyətdə əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyişə nail olunmuşdur.

Hesabat illində tənha xroniki xəstə qocalara, aztəminatlı ailələrə və məcburi köçkünlərə, ümumilikdə 24.665 nəfər zavallı insana 476.471manat məbləğində humanitar yardım göstərilmişdir.

Bu yardımlar müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir:

- İanə qutularından, təmənnasız ayrılmış tibbi müayinə kartları şəxsi vəsait və digər mənbələrdən daxil olan vəsaitin hesabına 950 nəfərə 34.330 manat məbləğində;
- QAC–nin Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına 23.715 nəfər zavallıya 476.471 manat məbləğində humanitar yardım edilmişdir.

**Problemlər:**

- Humanitar Yardım məqsədi ilə lazım olan maliyə vəsaitinin kifayət qədər olmaması.

# MİQRASİYA



# MİQRASİYA

**Məqsəd:**

Qaçqın və məcburi köçkünlərin problemlərini qismən də olsa aradan qaldırmaq, onlara lazım olan köməkliyi imkan daxilində həyata keçirmək. Onlar arasında tənha, kimsəsiz qocalara qayğı və mərhəmət göstərmək.

**Fəaliyyətlər:**

Yanvarın 16-da Yasamal rayonunda fəaliyyət göstərən qaçqın və məcburi köçkün uşaqlarının təhsil aldıqları 50 saylı Füzuli rayon tam orta məktəbində belə tədbir keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin "Miqrasiya", "Sağlamlıq və qayğı" söbələri bu kimi silsilə tədbirləri birgə həyata keçirir. Tədbirin məqsədi şagirdlərə İlk yardım vərdişlərinin öyrədilməsi olub. Tədbirdə 38 nəfər müəllim heyəti və şagird iştirak etmişdir. Tədbirin sonunda iştirakçılara məktəbli ləvazımatı təqdim olunmuşdur.

AzQAC-ın "Miqrasiya" və "Sağlamlıq və qayğı" söbələri yanvarın 24-də Abşeron rayonunun Masazır qəsəbəsində yerləşən qaçqın və məcburi köçkün uşaqların təhsil aldıqları 126 saylı Kəlbəcər tam orta məktəbində tədbir keçirmişlər. Tədbirin məqsədi şagirdlərə İlk yardım vərdişlərinin öyrədilməsindən ibarət idi. Belə ki, həyatda tez-tez müxtəlif hadisələrə rast gəlinir və belə hallarda zərərçəkənə ilkin yardım göstərilməsi çox vacibdir. Qeyd etmək lazımdır ki, tədbirdə 50 nəfər şagird və müəllim heyəti iştirak etmişdir. Tədbirin sonunda iştirakçılara gigiyenik dəstlər təqdim olunmuşdur.

20-21 mart tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Novruz bayramı münasibətilə tənha və kimsəsizlərə yardım göstərmişdir. Belə ki, Cəmiyyətin Miqrasiya şöbəsinin təşkilatçılığı, eyni zamanda "Azərsun Holdinqin" təşəbbüsü ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində məskunlaşmış məcburi köçkün ailələrinə və tənha kimsəsiz qocalara 15 bağlama ərzaq yardımı paylanılmışdır.

Martın 16- da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsi Novruz bayramı münasibətilə tənha və kimsəsizlərə yardım məqsədilə "Azpetrol LTD MMC"-nin maliyə dəstəyi və "Ulduz" şokolad fabrikinin təşəbbüsü ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində məskunlaşmış məcburi köçkün ailələrinə və tənha kimsəsiz qocalara 25 bağlama zəruri ərzaq yardımları paylanılmışdır.

Martın 30- da Bakı şəhəri, H.Əliyev şossesi ətrafında yerləşən ərazidə ağacəkmə aksiyası keçrilmişdir. Aksiyada 400 ədəd müxtəlif növ meyvə ağacları əkilmişdir. Tədbirin təşkilatçısı miqrasiya şöbəsi olmuşdur.

Avqustun 16- da Cəmiyyətin Miqrasiya şöbəsinin təşkilatçılığı, eyni zamanda "Azpetrol LTD MMC"-nin maliyə dəstəyi ilə Bakı şəhəri Nərimanov, Yasamal, Səbail, rayonlarında məskunlaşmış məcburi köçkün ailələrinə və tənha kimsəsiz qocalara 30 bağlama zəruri ərzaq yardımı paylanılmışdır.

Avqustun 24-də müqəddəs Ramazan bayramı münasibətilə Cəmiyyətin Miqrasiya şöbəsinin təşkilatçılığı, eyni zamanda "Azərsun Holdingin" dəstəyi ilə Bakı şəhəri Yasamal rayonunda tənha kimsəsiz qocalara 15 bağlama zəruri ərzaq yardımı

paylanılmışdır.

Noyabrın 29-30- da BMqT-nin Azərbaycandakı nümayəndəliyi "Azərbaycanda miqrantların hüquqlarını qoruyan effektiv mexanizmlərin yaradılması" layihəsini həyata keçirmək məqsədi ilə konfrans təşkil etmişdir. Layihə qanunvericilikdə olan boşluqların aradan qaldırılması üçün milli potensialların gücləndirilməsi, qanunların aliliyinin qorunması və miqrantların, xüsusilə əməkçi miqrantların, eləcə də insan alveri qurbanlarının və potensial qurbanların hüquqlarının müdafiəsinə yönələn bacarıqların və mövcud mexanizmlərin daha da inkişaf etdirilməsi məqsədini daşımışdır.

Konfrans müxtəlif milli təcrübələrin bölüşdürülməsinə, Azərbaycanda miqrantların insan hüquqlarının müdafiəsinə xidmət edən cari sistemin hüquqi və praktiki mexanizmlərinin təkmilləşdirilməsinə təsir edə biləcək vasitələrin, eləcə də beynəlxalq əməkdaşlığın nəzərdən keçirilməsinə şərait yaratmaqla yüksək səviyyədə keçirilmişdir

Tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov iştirak etmişdir.

**Nailiyyətlər:**

Bakı şəhərində 6 orta məktəb, 3 yataqxanada sağlamlıq və ilk yardim təlimi keçrilmişdir. Keçrilən tədbirlərdə 254 şagird və 112 yataqxanalarda məskunlaşan məcburi köçkün sağlamlıq və ilk yardım vərdişlərinə yiyələnmişdir.

**Problemlər:**

Maliyə vəsaitinin az olması səbəbindən bu kimi lahiyələrin davamlılığını təmin etmək olmur.





# AXTARIŞ XİDMƏTİ

**Məqsəd:**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin, bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyətlər:**

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilir;
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı;
- Miqrasiya ilə bağlı axtarış;
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi;
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı;
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı.

**KİV ilə əməkdaşlıq**

Bir sıra KİV-lə 2012-cü ildə birgə əməkdaşlığın davamına dair görüşlər keçirilmişdir. Azərbaycan Televiziyası və Radio verilişlə-ri Qapalı Səhmdar Cəmiyyəti Axtarış Xidmətinin fəaliyyəti barədə silsilə verilişlər keçirilmişdir. APA-nə AX-nin fəaliyyəti və statistik məlumatlar verilmişdir. Rusiyanın "ORT" telekanalında yayımla-nan "Jdi menya" verilişi ilə əməkdaşlığımız telefon və elektron poçt vasitəsilə davam etmişdir.

**Dövlət strukturları ilə əməkdaşlıq**

- AzQAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

**1)** Daxili İşlər Nazirliyi;
**2)** Milli Təhlükəsizlik Nazirliyi;
**3)** Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi;
**4)** Bakı Şəhər İcra Hakimiyyəti;
**5)** Respublika Prokurorluğu;
**6)** Hərbi Komissarlıq;
**7)** Qaçqınlar üzrə Ali Komissarlıq;
**8)** Qaçqın və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi;
**9)** Telefon – məlumat xidməti və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)

**Daxili görüşlər**

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir. Erməni millətindən olan itgin düşənlərin axtarışı və sənədlərin tapılmasına dair bir sıra konkret işlər müzakirə edilmişdir.

**Fəaliyyətimiz**

Baş ofisdə Gənclər şöbəsi 40 tələbə üçün "Gənclər günü"münasibətilə dəyirmi masa keçirmiş, fəaliyyətimiz barədə prezentasiya edilmişdir. Fevralın 14-15-də, 7 Regional Mərkəzin Gənclərlə iş üzrə kordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən 22 könüllüyə "Lider treyninqi" keçirilmişdir, treyninqdə AX-nin işçiləri iştirak etmiş və öz fəaliyyətimiz barədə məlumat verilmişdir.

29 fevral, 30 Mart tarixlərində Yayım Sektoru ilə birgə Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən 314 №-li məktəbdə 6-7-ci sinif şagirdləri üçün treyninq keçirilmişdir. Ümumilikdə treyninqlərdə 110- şagird iştirak etmişdir. 23-24 mart tarixlərində Sumqayıtda "Əlil uşaqların dünyaya inteqrasiyası"

layihəsi çərçivəsində, layihədə iştirak edən könüllülər üçün sosial treyninq keçirilmişdir. Şöbələr arası fəaliyyətə dair Axtarış Xidməti bir sıra tədbirdə iştirak etmişdir. İyunun 19- da "Araz" otelində "Əlil uşaqların sosial inteqrasiyası" proqramı çərçivəsində, həmin uşaqların valideyinlərinin, hökumət və QHT iştirakı ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə uşaqların problemlərinin həlli yolları müzakirə edilmişdir. Həmçinin, AX-nin fəaliyyəti barədə prezentasiya keçirilmişdir. Mayın 29- da 4000 ədəd poster və 2000 ədəd buklet çap edilmişdir. Çap edilmiş materiallar rayon bölmələrində paylanılmaq üçün 7 regional mərkəzə verilmişdir. İyul ayında Bakı Dövlət və Slavyan Universitetlərinin tələbələri üçün treyninq keçirilmişdir. Oktyabrın 3- də Beynəlxalq Sosial Xidmətin işçiləri ilə görüş keçirilmişdir. Görüş uşaqların hüquqlarının qorunması və müdafiəsi suallarının həlli üçün birgə əməkdaşlığın aparılmasına həsr edilmişdir. Ailə üzvlərinin bir-birinə qovuşması və itgin düşmüş valideynlərin axtarışı mövsuzu müzakirə edilmişdir. Bir neçə qaçqın və məcburi köçkünlərə sosial problemlərinin həlli üçün itirilmiş sənədlərinin axtarışında köməklik edilmişdir (statistik məlumatlar əlavə olunur).

**Regional Mərkəzlər / rayon bölmələri**

**1.** İl ərzində Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin və Naxçıvan Muxtar Respublika Komitəsinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılıb. Həmçinin, bir çox yerli bölmələr sədrləri ilə axtarış işlərilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

**2.** Sumqayıt və Lənkəran RM-nə plakatlar və bukletlər paylanılmışdır.

**Miqrasiyaya dair axtarış - 13**
**Miqrasiyaya dair sənədlərin axtarışı - 4**
**II Dünya müharibəsinə dair sənədlərin axtarışı - 2**

**Statistik hesabat**
2012-ci il ərzində daxil olmuş sorğular

Açılmış işlər - 59

Respublika daxili - 34

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 29 |
| İİ Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 3 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| **Cəmi:** | **34** |
| Ailə məktubu | 5 |

**Ailə məktubu - 4 (müsbət), - 1(mənfi)**

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 11 (müsbət) | 17 (mənfi) |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 (müsbət) | 1 (mənfi) |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | | 1 (mənfi) |
| Miqrasiyaya dair sənədlərin axtarışı | 2 (müsbət) | 2 (mənfi) |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 2 (müsbət) | 1 (mənfi) |
| Cəmi: | 16 | 22 |

# MALİYYƏ



WEEKLY CASH BALANCE
Cash in hand brought forward
Cash drawn from bank
Daily takings a
Special items b
Total receipts
DEDUCTIONS
Paid into bank c
Cash for expenses d
Cash for goods f
Actual cash
Balance brou
Paid into b
Cash dra
Cheques
Standing
Bank ch
Motor expenses
Servicing, repairs etc
Travel
Advertising & entertainment
& professional costs
MU
ON
M+
9
6
3
9942.

# MALİYYƏ

Gəlirlərin təhlili göstərir ki, AZ.QAC üzrə ümumi gəlirlərdən 2011-ci ildən fərqli artım tendensiyası müşahidə olunmaqdadır. Az.QAC tərəfindən İranın Şərqi Azərbaycan hissəsinin Təbriz vilayətində baş vermiş zəlzələyə maddi yardım kampaniyası Az QAC-nin donor təşkilat istiqamətində atdığı addım kimi qiymətləndirilmişdir.

Bununla, yanaşı qeyd etməliyik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyələşdirilən tədbirlərin 2012-ci ildə 30 552 manat təşkil edib və bu gəlirlərin 1,7 %-dir. 2011-cu ilə nisbətdə 5,6% azalma tempi müşahidə olunmuşdur.

Bununla yanaşı 2012-cı ildə ötən illərlə müqayisədə üzvlük haqqlarının yığılması ilə maliyyə təsərrüfat fəaliyyəti zəif olan Xızı, Qubadlı, Hacıqabul, Cəlilabad, Lerik, Yardımlı, Göygöl, Samux, Daşkəsən, RB-nin fəaliyyətlərində müsbət dönüş müşahidə olunmuşdur.

Beynəlxalq Federasiyadan, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyindən, digər donorlardan, daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmiş, təyinatı üzrə xərclənmiş və həmin donorların maliyyə hesabat prosedurlarına uyğun olaraq hazırlanmışdır. Eləcə də AzQAC ilə ikitərəfli həyata keçirilmiş layihələrdə hesabat vermə qaydaları şəffaflığın qorunması və artırılması ilə bağlı olaraq həmin donorların istəklərinə uyğun müvafiq qaydada həyata keçirilmiş və müddətli monitorinqlər zamanı heç bir neqativ hallara rast gəlinməmişdir.

AzQAC hesabına edilən yardımlar ildən ilə artır və 2012-ci ildə 603 347,50 manat təşkil etmişdir. Bu da cəmiyyətin ümumi xərclərinin 22,3% -nə bərabərdir. Qeyd etmək lazımdır ki, yerli bölmələr də zavallı insanlara yardımların səviyyəsini qaldırmışlar. Onu da qeyd etmək lazımdır ki, son illərdən yerli bölmələrdə mühasibatlığı və hesabat səviyyəsini gücləndirmək məqsədilə Az QAC-in yerli bölmələrində maliyə işlərinin qurulmasına dair təlimat hazırlanmış və yerli bölmələrin maliyəçiləri ilə müvafiq görüşlər keçirilmişdir. İl ərzində bütün regional mərkəzlərdə Maliyə Nazirliyinin nəşr etdiyi mühasibatlıq işlərinin qurulmasına dair təlimatlar paylanılmışdır. İl ərzində eləcə də yerli bölmələrin büdcə ilə hesablaşmalarına nəzarət olunmuş, bölmələrin DSMF və yerli vergi orqanları ilə hesablaşmaları qanunvericiliyə uyğun aparılması müşahidə olunmuşdur.

Hesabat ili maliyə- təsərrüfat fəaliyyətləri ilə bağlı İsmayıllı, Qaradağ, İmişli, Şirvan, Nərimanov, Xətai, Ağdaş, Ucar, Goranboy, Tovuz, Şəki, Lənkəran, Masallı, Zərdab rayon bölmələri, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Neft daşları və Cilov adası birləşmiş sahə bölmələrinin fəaliyyətlərində inkişaf müşahidə olunmuşdur. Adı çəkilən rayon, şəhər və sahə bölmələri il ərzində nümunəvi maliyə-təsərrüfat fəaliyyətləri göstərmişlər.

Həmçinin, 2011-2012 cu illəri əhatə edən AzQAC-nin katibliyində audit yoxlaması keçirilməsi planlaşdırılmışdır.

| | 2012 | |
|---|---|---|
| | **manatla** | **faiz** |
| **Gəlirlər** | 1,844,858.88 | 100% |
| Beynəlxalq Federasiya | 62,947.38 | 3.4% |
| BQX Komitəsi ( BQX/QAH Yayım, Axtarış, ilk yardım, FH, iqtisadi təhlükəsizlik) | 30,552.00 | 1.7% |
| Büdcə vəsaiti | 686,735.00 | 37.2% |
| Üzvlük haqqları | 725,366.00 | 39.3% |
| TAG International | 14,712.52 | 0.8% |
| Iran (Təbriz) zəlzələ kampaniyası | 22,129.00 | 1.2% |
| Avstriya QX | 43,202.36 | 2.3% |
| Şoken Fond | 20,270.02 | 1.1% |
| DREF | 215,297.00 | 11.7% |
| Fandreyzinq (ianə qutularından, müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən) | 20,936.60 | 1.1% |
| Digər gəlirlər | 2,711.00 | 0.1% |



- 1. Beynəlxalq Federasiya
- 2. BQX Komitəsi ( BQX/QAH Yayım, Axtarış, ilk yardım, FH, iqtisadi təhlükəsizlik)
- 3. Büdcə vəsaiti
- 4. Üzvlük haqqları
- 5. TAG International
- 6. İran (Təbriz) zəlzələ kampaniyası
- 7 Avstriya QX
- 8 Şoken Fond
- 9 DREF
- 10 Fandreyzinq (ianə qutularından, müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən)
- 11 Digər gəlirlər

| | 2012 | |
|---|---|---|
| | manatla | faiz |
| Xərclər | 2,701,684.60 | 100% |
| Beynəlxalq Federasiya | 62,947.38 | 2.3% |
| BQX Komitəsi ( BQX/QAH Yayım, Axtarış, ilk yardım, FH, iqtisadi təhlükəsizlik) | 30,552.00 | 1.1% |
| Büdcə vəsaiti | 686,735.00 | 25.4% |
| Az QAC tərəfindən həyata keçirilmiş humanitar aksiyalar | 603,347.50 | 22.3% |
| Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, əmək haqqı | 265,507.62 | 9.8% |
| Digər xərclər | 72,595.10 | 2.7% |
| Az QAC könüllülərin il ərzində göstərdikləri xidmətlər | 980,000.00 | 36.3% |




Azərbaycan Qızıl Aypara Cəmiyyəti



# Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

**Humanizm**
Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlxalq, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat, insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

**Qərəzsizlik**
Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, insanların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir. İlk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

**Neytrallıq**
Hər bir kəsin ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

**Müstəqillik**
Hərəkat müstəqildir. Öz insanseverlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç və Qızıl Aypara Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

**Könüllü xidmət**
Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

**Vahidlik**
Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıqdır və öz insanseverlik fəaliyyətini ölkənin bütün ərazisində həyata keçirir.

**Universallıq**
Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludular.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti
AZ1022 Bakı şəh., Səməd Vurğun küç. 112
Tel.: (+994 12) 493-84-81
Faks: (+994 12) 493-15-78
E-mail: redcrescent@redcrescent.az
www.redcrescent.az